QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 197 (5428) 28 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan Prezidenti İlham Əliyev İranın iqtisadi işlər və maliyyə nazirini qəbul edib



Səh 2

## Prezident Ağdamda yol tikintisinə 5,4 milyon manat ayırıb

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 27-də "Ağdam rayonunun Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. İyirmi doqquz min nəfər əhalinin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun tikintisi məqsədi ilə 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,4 milyon manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin I konfransı keçirilib



4

Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması sosial siyasətin prioritetidir



6

Siyavuş Novruzov: "İlqar Məmmədov sadəcə bir bəhanədir"



6

Fəxri konsul "ASAN xidmət"də olub



8

Azərbaycan irqi və dini zəmində münaqişə yaradanlara qarşı barış mövqeyindədir

BAKI BEYNƏLXALQ MULTIKULTURALIZM MƏRKƏZİ

9

Deputat: "Bakı-Tbilisi-Qars" çox ciddi layihədir"



10

10

DTX növbəti antiterror əməliyyatı keçirib



14

"Milli Şura" xarici dairələrin tapşırıqlarını yerinə yetirən bir təşkilatdır



16

"Barselona" Arda ilə bağlı qərarını verdi



# Prezident İlham Əliyev Avstraliyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark İnnes-Braunun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Mark İnnes-Braun fəxri qarovul dəstəsinin qarşısından keçdi. Mark İnnes-Braun etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında parlament üzvlərinin, nazirlər və digər səviyyədə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd etdi. İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı qarşılıqlı ticarətin artırılması üçün iqtisadi əməkdaşlıq formatının müəyyənləşdirilməsinin zəruri olduğunu dedi. Prezident İlham Əliyev ölkələrimizin bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, geniş liman şəbəkəsindən istifadə edərək yeni əməkdaşlıq sahələrinin qurulmasının mümkünlüyünü qeyd etdi. Dövlətimizin başçısı turizm sahəsində də əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Mark İnnes-Braun səfirlik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin inkişafı işinə töhfəsini verəcək. Avstraliya İttifaqının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark İnnes-Braun ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25-ci ildönümündə etimadnaməsini təqdim etməkdən qürur hissi duyduğunu bildirdi. O, ölkəsinin Azərbaycan ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirərək dedi: “Avstraliya hər zaman Azərbaycanı möhkəm şəkildə dəstəkləmişdir. Biz Dağlıq Qarabağla bağlı sizin suverenliyinizi və ərazi bütövlüyünüzü dəstəkləyirik, biz sizin mövqeyinizi dəstəkləyirik”. Sonra səfir Mark İnnes-Braun ölkələrimiz arasında ticarət və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsinin zəruriliyini bildirdi.

## Prezident İlham Əliyev Qvatemalanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Qvatemala Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lars Henrik Pira Perezin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Lars Henrik Pira Perez fəxri qarovul dəstəsinin qarşısından keçdi.***

Lars Henrik Pira Perez etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Görüşdə Azərbaycanla Qvatemala arasında ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı və ölkələrimizin iqtisadi, sərmayə qoyuluşu, ticarət və mədəni əlaqələrin inkişaf etdirilməsi istiqamətində səy göstərməkdə maraqlı olduğu bildirildi. Görüşdə, həmçinin Azərbaycanla Qvatemala arasında əlaqələrin daha da genişləndirilməsi üçün ölkələrimizin bir-birini daha yaxından tanımasının və məlumatlandırılmasının zəruriliyi qeyd olundu. Söhbət zamanı səfir Lars Henrik Pira Perez Bakı-Tbilisi-Qars dəmir yolunun yaxın günlərdə nəzərdə tutulan açılışı münasibətilə dövlətimizin başçısını təbrik etdi.

## Azərbaycan Prezidenti İlham Əliyev İranın iqtisadi işlər və maliyyə nazirini qəbul edib



Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, hökumətlərarası komissiyanın həmsədri Məsud Kərbasianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Məsud Kərbasianı İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi. Hökumətlərarası birgə komissiyanın işinə toxunan Prezident İlham Əliyev komissiyanın bundan sonra da uğurla və səmərəli fəaliyyət göstərəcəyinə əmin olduğunu bildirdi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin çox sürətlə və uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bu əlaqələrin genişləndirilməsində dövlət başçıları arasında keçirilən görüşlərin xüsusi önəm daşıdığını vurğuladı. Əməkdaşlığımızın gözəl nəticələr verdiyini deyən Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin ötən il 70 faiz, bu il isə 30 faiz artdığını bildirərək, əldə edilən bütün razılaşmaların icra olunduğunu dedi. Birgə önəmli transmilli layihələrin uğurla həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı bundan sonrakı illərdə də bu istiqamətdə səmərəli əməkdaşlığımızın davam etdiriləcəyini əminliklə söylədi. Məsud Kərbasian İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, hökumətlərarası birgə komissiyanın həmsədri kimi ölkəmizə ilk dəfə səfər etməsindən məmnunluğunu vurğuladı. Qonaq bu vəzifədə ona göstərilən etimadın və məsuliyyətin öhdəsindən gələcəyinə və ölkələrimizin əlaqələrinin inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Məsud Kərbasian dedi: “Sizin rəhbərliyiniz altında Azərbaycanda əldə edilən uğurlu inkişaf insanı valeh edir. Mən Sizi əldə olunan bu gözəl nailiyyətlər münasibətilə təbrik edirəm”. Görüşdə ölkələrimiz arasında iqtisadi, ticarət, nəqliyyat, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi, səhiyyə, kənd təsərrüfatı, bank, maliyyə sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# Su təchizatının yaxşılaşdırılması dövlətin prioritet istiqamətlərindəndir

*Prezident İlham Əliyevin bu sahənin inkişafına 15 milyon manat ayırması deyilənlərin təzahürüdür*



***Bu günlərdə Prezident İlham Əliyev istehlakçıların suölçən cihazlarla təmin edilməsi ilə bağlı verdiyi Sərəncam deyilənlərin məntiqi təzahürüdür. Sərəncamda deyilir ki, əhaliyə verilən içməli suyun keyfiyyətini yaxşılaşdırmaq dövlətin prioritetləri sırasındadır və bu sahədə müntəzəm işlər görülür: "Son illər qəbul olunmuş dövlət proqramlarının icrası nəticəsində regionların içməli su təchizatı və kanalizasiya infrastrukturu yenidən qurulub, sakinlərin içməli su ilə fasiləsiz təminatı sahəsində nailiyyətlər əldə edilib. İstehlakçılara göstərilən xidmətlərin keyfiyyətini artırmaq, əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunmasının başlıca meyarlarından biri olan dövlət standartlarına uyğun keyfiyyətli içməli suyun fasiləsizliyini təmin etmək, habelə, istehlak edilən suyun uçotunu dəqiq aparmaq və itkilərin qarşısını almaq məqsədilə müvafiq suölçən cihazların quraşdırılması başlıca şərtdir".***

Prezident İlham Əliyev istehlakçıların suölçən cihazlarla təmin edilməsi üçün "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 2017-ci ilin dövlət büdcəsindən 15 milyon manat ayrılmasını nəzərdə tutur.

### Nümunəvi inkişaf modelinə malik olan ölkə

Bu gün Azərbaycan nümunəvi inkişaf modelinə malik olan bir ölkə kimi fərqlənməkdədir. Son illərin davamlı inkişafı sayəsində Azərbaycan regionun lider dövləti səviyyəsinə yüksəlib. Bunun nəticəsidir ki, bölgədə Azərbaycanın təşəbbüsü və fəal iştirakı olmadan hər hansı beynəlxalq layihəni reallaşdırmaq mümkün deyil. Ölkəmiz, eyni zamanda, müntəzəm olaraq qlobal miqyasda yeni-yeni əməkdaşlıq platformaları ilə çıxış edir ki, bunun da sayəsində respublikamızın beynəlxalq nüfuzu və təsir imkanları əhəmiyyətli dərəcədə artıb. Bu gün müstəqil Azərbaycanın nüfuzlu regional və qlobal faktora çevrilməsinin isə obyektiv əsasları var.

Ölkə Prezidentinin imzaladığı bu Sərəncam insanların suya olan tələbatının ödənilməsinə yönəlmiş uğurlu Sərəncamdır. Çünki tarix boyu bu sahədə görülən hər bir iş savab əməl sayılıb. Suyun insanlara xoşbəxtlik, sağlamlıq, səadət gətirdiyini xatırladan böyük dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "Su verən, bulaq yaradan, çay açan hər bir insan həmişə xalqın, millətin, insanların məhəbbətini qazanır" fikirləri su təsərrüfatı işçilərinin əməyinə verilən ən böyük qiymətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Su sağlamlıq deməkdir. Təmiz içməli su insanın sağlamlığına verilən ən böyük töhfədir" sözləri də insan amilinə verilən önəmin təcəssümüdür.

Belə ki, son illər Azərbaycanda aparılan uğurlu sosial siyasət ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində mühüm dövlət proqramları icra olunur.

### Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin reallaşması əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsinə səbəb olacaq

Məhz bu gün dövlətin birbaşa qayğı və diqqəti nəticəsində paytaxt Bakıda və regionlarda reallaşdırılan həmin layihələr ölkə əhalisinin keyfiyyətli içməli su ilə fasiləsiz təminatının və kanalizasiya xidmətlərinin yaxşılaşmasına səbəb olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, görülmüş işlər nəticəsində mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunan əhalinin sayı iki dəfədən çox artaraq, 4 milyon 500 min nəfəri keçmişdir. Hazırda ölkə üzrə xidmət göstərilən əhalinin 65,9 faizi, Bakı şəhərində isə 80,8 faizi fasiləsiz rejimdə içməli su ilə təmin edilir.

### Dünyanın ən böyük ultrasüzgəc qurğusu

2015-ci il tarixi bir il kimi yaddaşlarda qalıb. Çünki bu tarixi ildə Prezident İlham Əliyevin iştirakı ilə dünyanın ən böyük ultrasüzgəc qurğusu olan Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi istismara verildi. Belə ki, buradan götürülən suyun Abşeron yarımadasının yaşayış məntəqələrinə çatdırılması üçün 84 km uzunluğunda Ceyranbatan-Zirə Magistral Kəməri və magistral xəttin marşrutu boyu ümumi tutumu 90 min kub metr olan Abşeron, Saray, Balaxanı, Ramana, Qala, Zirə anbarları tikilibdir. Ceyranbatan-Zirə xəttinin istismara verilməsi nəticəsində Bakıətrafı qəsəbə və kəndlərdə 300 mindən artıq insanın su təchizatı yaxşılaşaraq, 90 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunubdur. Həmçinin, Türkan, Zirə və Pirallahı qəsəbələri, məhz bu layihənin gerçəkləşməsi nəticəsində ilk dəfə mərkəzləşmiş qaydada içməli su ilə təmin edilibdir.

Ümumilikdə, Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin reallaşdırılması əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə səbəb olacaqdır.



### Görülən işlər və real hədəflər...

Ümumilikdə, "Azərsu" ASC-nin 13 illik fəaliyyəti dövründə 7500 km magistral və paylayıcı su xətti, 2800 km kanalizasiya kollektoru və xətti, 4 sutəmizləyici qurğu, 221 su anbarı, 110 su və kanalizasiya-nasos stansiyası tikilib, 292 artezian və subartezian quyusu qazılıb. Görülmüş işlər nəticəsində mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunan əhalinin sayı 2 dəfədən çox artaraq, 4 milyon 500 mini keçmişdir. Hazırda ölkə üzrə xidmət göstərilən əhalinin 65,9, Bakı şəhərində isə 80,8 faizi fasiləsiz rejimdə içməli su ölkəmizdə su təsərrüfatı və meliorasiya sektorunda görülmüş işlərin məntiqi nəticəsidir.

Bütün bu faktlar Azərbaycanın nümunəvi inkişaf modelinə malik olan bir ölkə kimi fərqləndiyini təsdiqləyir. Son illərin davamlı inkişafı sayəsində Azərbaycan regionun lider dövləti səviyyəsinə yüksəlib. Bunun nəticəsidir ki, bölgədə Azərbaycanın təşəbbüsü və fəal iştirakı olmadan hər hansı beynəlxalq layihəni reallaşdırmaq mümkün deyil. Ölkəmiz, eyni zamanda, müntəzəm olaraq qlobal miqyasda yeni-yeni əməkdaşlıq platformaları ilə çıxış edir ki, bunun da sayəsində respublikamızın beynəlxalq nüfuzu və təsir imkanları əhəmiyyətli dərəcədə artıb. Bu gün müstəqil Azərbaycanın nüfuzlu regional və qlobal faktora çevrilməsinin obyektiv əsasları var. Beləliklə, bütün bu reallıqlar ölkə Prezidenti İlham Əliyevin öz vətəndaşlarının sağlamlığı və sosial rifahının yüksəldilməsinə hesablanmış uğurlu siyasətinin əsas istiqamətini təşkil edir. Bu layihələr ölkə rəhbərliyi tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasətə böyük töhfələr verəcək və Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarla Azərbaycan möhtəşəm uğurların ünvanına çevriləcək.

**RƏFİQƏ KAMALQIZI**

# Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin I konfransı keçirilib




***Dünən Sabirabad rayonunda Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin (RİİB) birinci konfransı keçirilib. SİA xəbər verir ki, konfransda Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov, RİİB könüllüləri, müxtəlif regionların, eləcə də beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Əvvəlcə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın konfrans iştirakçılarına təbrik məktubu oxunub.***



Məktubda bildirilir ki, bu gün Azərbaycan müstəqil siyasət yürüdən, beynəlxalq aləmdə ciddi mövqe qazanan qüdrətli dövlətdir. Ölkəmizin bütün şəhər və rayonlarında abadlıq-quruculuq işləri aparılır, yeni təhsil və tibb müəssisələri inşa edilir, infrastruktur layihələri həyata keçirilir. Heydər Əliyev Fondu da yarandığı ilk gündən ictimai həyatın, demək olar ki, bütün sahələrində fəal iştirak edərək əhalinin müxtəlif problemlərinin həllinə çalışır. “Bizim həyata keçirdiyimiz hər bir layihə, ilk növbədə, vətəndaşların maraqlarını qorumağa, köməyə ehtiyacı olan insanlara yardım etməyə yönəlib. “Regional İnkişaf” İctimai Birliyini təsis edərkən əsas məqsədimiz dövlət qurumları, qeyri-hökumət təşkilatları, sahibkarlar və yerli əhali arasında konstruktiv əməkdaşlıq modeli yaradaraq insanları narahat edən problemlərin aradan qaldırılmasına nail olmaq idi. Düşünürəm ki, biz bunu bacardıq. Regionlarda ictimai nəzarətin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğu, ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatını əhatə edən mühüm layihələrin reallaşdırılması istiqamətində uğurlu nəticələr əldə edilmişdir. “Regional İnkişaf” İctimai Birliyinin təşəbbüslərinə qoşularaq layihələrin icrasında xüsusi fəallıq göstərən könüllülərin fəaliyyətini qeyd etmək istəyirəm. Siz, Azərbaycan gəncləri olaraq, dövlətin sizə göstərdiyi yüksək diqqət və qayğıya layiqincə cavab verərək ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilmisiniz. Amma qarşıda sizi yeni hədəflər, yeni vəzifələr gözləyir. Hər birinizə bu şərəfli və xeyirxah, eyni zamanda, məsuliyyətli işinizdə müvəffəqiyyətlər arzulayıram. Əminəm ki, konfransda aparılacaq geniş və səmərəli müzakirələr gələcək fəaliyyətinizdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə öz töhfəsini verəcəkdir”, - deyə məktubda qeyd olunur.

Konfransda çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov bildirib ki, Heydər Əliyev Fondu yarandığı ilk gündən humanizm və insansevərlik ideallarına arxalanaraq xalqımıza xidməti özünün başlıca məqsədi kimi müəyyən edib. Onun sözlərinə görə, Heydər Əliyev Fondu hər zaman fəaliyyətində cəmiyyətimizin daha çox qayğıya ehtiyacı olan təbəqələrinə - valideyn himayəsindən məhrum olmuş uşaqlara, şəhid ailələrinə, qaçqın və məcburi köçkünlərə, qocalara və müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara yönələn layihə və proqramların icrasını ön plana çəkir. “Regional İnkişaf” İctimai Birliyinin təsis edilməsində əsas məqsəd isə bölgələrdə yaşayan vətəndaşların üzləşdiyi problemlərin, yerli əhalini kompleks şəkildə narahat edən məsələlərin aradan qaldırılmasına yönəlib. Anar Ələkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə regionların inkişafı strategiyasının uğurla həyata keçirilməsinin nəinki bölgələrin, ümumiyyətlə, bütün Azərbaycanın inkişafına təsir etdiyini, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrasının ölkəmizin sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanğıcını qoyduğunu vurğulayıb. Bununla yanaşı, insanların müxtəlif növ problemlərlə üzləşərək onların həlli üçün ayrı-ayrı qurumlara müraciət etdiyini deyən Anar Ələkbərov “Regional İnkişaf” İctimai Birliyinin məhz həmin problemləri aidiyyəti təşkilatlara çatdıran vasitəçi qurum kimi fəaliyyətə başladığını bildirib. Birliyin fəaliyyət dövrü ərzində vətəndaşlardan daxil olan müraciətlərə həssaslıqla yanaşaraq əməkdaşlığa daim hazır olan strukturlara təşəkkürünü bildirən Anar Ələkbərov vətəndaşların müraciətlərinə lazımi diqqət göstərməyən qurumlarla da rastlaşdıqlarını təəssüflə qeyd edib. Təşkilatın fəaliyyətində RİİB könüllülərinin rolunu xüsusi qeyd edən Anar Ələkbərov onların İctimai Birliyin bütün tədbirlərində fəal iştirak etdiyini, hazırda 350-dən çox könüllü korpusunun olduğunu deyib. Könüllülərin idman tədbirlərində, marafonlarda, xeyriyyə aksiyalarında, ekoloji layihələrdə, xüsusilə də ağacəkmə kampaniyalarında yaxından iştirakı təqdirəlayiqdir. Daha sonra “Regional İnkişaf” İctimai Birliyinin fəaliyyətindən bəhs edən film nümayiş olunub. Filmdə RİİB-in yaradılması, regionlarda vətəndaşlarla görüşlər, müraciətlərin qəbulu, müxtəlif sahələri əhatə edən layihələrin həyata keçirilməsi, RİİB-də könüllülük fəaliyyəti ilə bağlı görülən işlər öz əksini tapıb. Tədbirdə çıxış edən Böyük Britaniyanın Azərbaycana Birgə Yardım təşkilatının (UAFA Azərbaycan) təsisçisi Qvendolin Börçell “Regional İnkişaf” İctimai Birliyi ilə UAFA Azərbaycanın həyata keçirilən birgə layihələri barədə məlumat verib. Qeyd olunub ki, “Regional İnkişaf” İctimai Birliyi və Böyük Britaniyanın Azərbaycana Birgə Yardım təşkilatı arasında əməkdaşlıq haqqında imzalanan Memorandum çərçivəsində UAFA nümayəndələri Biləsuvar və Cəlilabad rayonlarında 300-dən çox aztəminatlı və sosial dəstəyə ehtiyacı olan ailədə görüşlər keçirib, onlara müxtəlif dövlət qurumlarının xidmətlərindən istifadəsinin genişləndirilməsi, ailə sahibkarlığının, davamlı kənd təsərrüfatı imkanlarının inkişaf etdirilməsi, müasir metodologiyalardan istifadə etməklə uşaqlara yönəlik səhiyyə, təhsil, habelə sosial xidmətlər şəbəkəsinin gücləndirilməsi istiqamətində təşkilati və hüquqi yardım göstərib. Qvendolin Börçell birgə layihələrin gələcəkdə də davamında maraqlı olduqlarını qeyd edib. “Regional İnkişaf” İctimai Birliyinin könüllülərlə iş, layihələr və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Tural Qənbərov konfrans iştirakçılarına RİİB-in gələcəkdəki sosial layihələri barədə məlumat verib. Bildirib ki, RİİB-in turizmin inkişafı sahəsi üzrə layihəsi əsasən regionların tarixi və coğrafi potensialını araşdıraraq turizm sahəsində bir sıra innovativ təklifləri özündə ehtiva edəcək. Bunların sırasında elektron xəritə, elektron məlumat bazası və turizm sahəsində müxtəlif elektron xidmətlər var. Bu çoxmərhələli layihə ölkənin artan turizm potensialına əlavə dəstək verməklə regionlara səfər edən turistlər üçün faydalı məlumat bazası olacaq. Habelə region sakinlərinin də bu layihənin imkanlarından yararlanması üçün əlavə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bununla yanaşı, aztəminatlı ailələrin gəlir əldeetmə imkanlarının genişləndirilməsi, məşğulluğun təmin edilməsi məqsədilə ailə təsərrüfatlarının inkişafı, inklüziv təhsil layihəsi, fiziki və əqli məhdudiyyətli uşaqların təhsil imkanlarının genişləndirilməsi üzrə layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Konfransda RİİB könüllüləri adından çıxış edən Gülpəri Kərimli İctimai Birliyin gənclərin könüllülük fəaliyyətinə cəlb olunmasına və onların ölkə üzrə şəbəkələşməsinə böyük əhəmiyyət verdiyini, bu məqsədlə müxtəlif layihələr və proqramlar həyata keçirildiyini, bir sıra tədbirlərdə könüllülərin kütləvi iştirakının təmin edildiyini diqqətə çatdırıb.

Ardı Səh. 5

# Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin I konfransı keçirilib




Əvvəli-Səh-4

O qeyd edib ki, həyata keçirilən bütün bu təşəbbüslər gənclərə vətənpərvərlik ruhunun və dövlətçilik ənənələrinin aşılanmasına, könüllülər arasında sosial məsuliyyət hissinin artırılmasına və onların fərdi inkişafına yönəlib. “Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını hər zaman hiss edərək ölkəmizin daha da inkişafında və güclənməsində fəal iştirak edir, dövlətçilik ənənələrini uca tutur. Əmin ola bilərsiniz ki, müstəqil Azərbaycanın gəncləri, “Regional İnkişaf” İctimai Birliyinin könüllüləri olaraq bundan sonrakı fəaliyyətimizdə də ölkəmizin inkişafı yolunda səylərimizi əsirgəməyəcəyik”, - deyə Gülpəri Kərimli bildirib.Tədbirdə çıxış edən Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov Prezident İlham Əliyevin rəhbərliyi altında gənclər və idman sahəsində, regionların sosial-iqtisadi inkişafında əldə olunan nailiyyətlərdən danışıb. Fuad Muradov “Regional İnkişaf” İctimai Birliyinin yaradılmasının regionların həyatında mühüm hadisə olduğunu vurğulayıb. RİİB-in regionlarda ictimai nəzarətin həyata keçirilməsində, region sakinləri ilə dövlət və bələdiyyə orqanları arasında dialoqun inkişaf etdirilməsində göstərdiyi təşəbbüslərə diqqət çəkən komitə sədri təşkilatın vətəndaşların sosial problemlərinin araşdırılması və həllinə dəstək istiqamətində göstərdiyi fəaliyyəti Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Fondun gördüyü xoşməramlı işlərin davamı kimi dəyərləndirib.

Konfransda Anar Ələkbərov və Fuad Muradov tərəfindən RİİB-in fəaliyyətində, eləcə də “Gəncə Marafonu-2017”də fəal iştirak edən könüllülərə təşəkkürnamələr verilib.Konfransın ilk hissəsinin sonunda iştirakçılar adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət oxunub. Müraciətdə qeyd edilib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2016-cı ilin fevral ayında təsis edilən “Regional İnkişaf” İctimai Birliyinin əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli layihələr reallaşdırmaq, dövlət tərəfindən aparılan islahatlar, o cümlədən regionların inkişafı üzrə həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərməkdir.”Dövlət proqramlarına dəstək olaraq “Regional İnkişaf” İctimai Birliyi tərəfindən bölgələrdə elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, ekologiya, İKT və infrastruktur layihələri həyata keçirilir. Fəaliyyət göstərdiyimiz qısa müddət ərzində insan kapitalının formalaşdırılması, əhalinin tibbi sağlamlığının mühafizəsi, sosial-məişət təminatının yaxşılaşdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilib, xüsusi qayğıya ehtiyacı olan və fiziki imkanları məhdud şəxslərlə genişmiqyaslı iş aparılıb və ən əsası, aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq şəraitində vətəndaşların çoxsaylı problemlərinin həllinə nail olunub”, - deyə müraciətdə qeyd edilir. Müraciətin sonunda “Regional İnkişaf” İctimai Birliyinin öz fəaliyyətində humanizm, insansevərlik, xalqa və dövlətə xidmət kimi dəyərlərə sadiq qalaraq regionların sosial-iqtisadi inkişafı, Azərbaycanın tərəqqisi naminə bundan sonra da böyük əzmlə çalışacağı bildirilib. Konfrans işini panel iclaslarla davam etdirib.Tədbir çərçivəsində Anar Ələkbərov və Fuad Muradovun “Regional İnkişaf” İctimai Birliyinin region nümayəndələri ilə görüşü olub. Görüşdə ölkəmizin sosial həyatında gənclərin ictimai fəallığının artırılması, onların könüllü işinə cəlb edilməsi, kütləvi tədbirlərdə iştirak, vətəndaşlarla iş, yeni layihələrin irəli sürülməsində təşəbbüskarlıq və digər istiqamətlərdə müzakirələr olub.Sabirabad rayonuna səfər çərçivəsində RİİB nümayəndələri 2010-cu ildə Kür və Araz çaylarının daşması nəticəsində baş vermiş təbii fəlakətin fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Fövqəladə Hallar Nazirliyi tərəfindən Sabirabad rayonunun Ulacalı kəndinin ərazisində salınmış yeni qəsəbədə yaşayan sakinlərlə görüşüb.Görüşdə Anar Ələkbərov Fondun gördüyü işlər, həyata keçirilən layihələr barədə məlumat verib, hər kəsi, xüsusilə gəncləri RİİB-in fəaliyyətində yaxından iştiraka dəvət edib.Öz növbəsində, vətəndaşlara göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildirən qəsəbə sakinləri “Regional İnkişaf” İctimai Birliyinin fəaliyyətindən məmnunluqlarını ifadə edərək, şəxsi təşəbbüsləri ilə təşkilatın gələcək layihələrinə dəstək göstərəcəklərini deyiblər.Qeyd edək ki, “Regional İnkişaf” İctimai Birliyinə rayon sakinlərindən yaşayış evlərinə dövlət reyestrindən çıxarışların verilməsi ilə bağlı daxil olmuş kollektiv müraciət əsasında Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təbii fəlakətin fəsadlarının aradan qaldırılması məqsədilə Ulacalı kəndinin ərazisində yeni salınmış qəsəbədə və ətraf yaşayış məntəqələrində dövlət vəsaiti hesabına 436 fərdi yaşayış evindən ilkin mərhələdə 105 evə dövlət reyestrindən çıxarış hazırlanaraq təqdim edilib. Eyni zamanda, müraciət edən və sənədlərində hər hansı çatışmazlıq olan vətəndaşlara komitə tərəfindən bilavasitə yerində hüquqi xidmətlər göstərilib, onlara çatışmayan sənədlərin haradan və necə alınması barədə ətraflı izahat verilib. RİİB-in təşəbbüsü ilə, həmçinin “Azəriqaz” İstehsalat Birliyi tərəfindən sözügedən qəsəbədə qaz təchizatı olmayan 36 evə təbii qaz xətti, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən isə elektrik təchizatı olmayan 9 evə elektrik xətti çəkilib və sayğaclar quraşdırılıb.





# Siyavuş Novruzov: "İlqar Məmmədov sadəcə bir bəhanədir"



Azərbaycanla Avropa Şurası arasında gərginlik davam edir. Qurumun baş katibi Torbörn Yaqland Azərbaycan hökumətinin hücumlarına məruz qalması barədə bəyanat yayıb. Yaqland özünün facebook hesabında üzv ölkələrin səsi ilə seçilmiş baş katibə hücumları Avropa Şurasında ilk hal kimi qiymətləndirib. SİA xəbər verir ki, YAP İcra katibinin müavini Siyavuş Novruzov gununsesi.info-ya müsahibəsində Azərbaycan-Avropa Şurası münasibətləri, habelə ölkədəki ictimi-siyasi duruma dair suallara aydınlıq gətirib.

***- Siyavuş müəllim, Avropa Şurası Azərbaycandan öz öhdəliklərinə sadiqlik istəyir. Bəs, Azərbaycan bu qurumdan nə istəyir?***

- Gəlin, məsələyə bir az qısa tarixə ekskurs etməklə yanaşaq. Azərbaycan Avropa Şurasına könüllü daxil olub. 2001-ci ildən bu yana ölkəmizdə istər siyasi, istərsə də iqtisadi islahatlar aparılıb. Deməli olar ki, ölkəmizin bütün qanunvercilik bazası Avropa standartlarına uyğunlaşdırılıb. Ölüm hökmü aradan qaldırılıb. İctimai etimada əsaslanan seçki qanunverciliyi yaradılıb. Avropa Konvensiyasını ratifkasiya etmişik. Bunlar öhdəliklərə sadiqlik deyilmi? Sualınızın ikinci hissəsinə gəlincə, biz Avropa Şurasından ikili yanaşmaya son qoymasını tələb edirik. Başqa bir istəyimiz yoxdur.

Torbörn Yaqland üzv ölkələrin səsi ilə seçilmiş baş katibə qarşı Azərbaycan hökumətinin hücum kampaniyası apardığını bəyan edir və bildirir ki, İlqar Məmmədovla bağlı qurumun prinsipial mövqeyi buna səbəb olub.

Biz heç kəsə hücum etmirik. Avropa Şurasından ədalət tələb edirik. Sanki Avropa Şurasında tək ölkəyik. İllərdir ki, bizi monitorinq altında saxlayırlar. Başqa dövlətlər yadlarına düşmür. İlqar Məmmədovla bağlı Azərbaycan məhkəmələrinin qərarları var. O qərarları oxusunlar.

Azərbaycan Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun məcburiliyini tanıyır. İlqar Məmmədovla bağlı da Strasburq Məhkəməsi qərarını elan edib ki, azadlığa buraxılmalıdır...

Avropa Məhkəməsinin icra olunmayan minlərlə qərarı var. Digər məqam, Azərbaycan məhkəmələri sonradan bu işə yenidən baxıb. Yəni ki, Avropa Məhkəməsinin məlum qərarından sonra prosedur başlayıb. İndi yenidən məhkəmə qərarını müzakirə etmək doğru deyil.

Bir məsələyə toxunum. Burada İlqar Məmmədov söhbəti getmir. Bu, Azərbaycana sadəcə təzyiq vasitəsidir. Biz də israr edirik ki, nəyə görə, bir milyon qaçqın-köçkünün hüquqları unudulur və bir neçə nəfərə görə Azərbacana belə münasibət sərgilənir. Avropa Şurasından fərqli olaraq, biz öhdəliklərimizə sadiqik. Amma bir məsələ də var ki, üzv ölkələrin hökumətləri öz vətəndaşlarının hüquq və azadlıqlarına görə, öhdəliyə imza atıb. Bu baxımdan Azərbaycanda insan hüquqları problemlərini hökumət qarşısında qaldırmaq məntiqlidir.

Mən sizinlə razı deyiləm. O zaman nədən Krım məsələsinə görə Rusiyanı cəzalandırmırlar? O zaman bunu etməzdilər. İlqar Məmmədov sadəcə bəhanədir.

Bəlkə, bu bəhanəni əllərindən almaq üçün onu azadlığa buraxsınlar...

Bəlkə də İlqar Məmmədovu Avropa Şurasında şəxsən tanıyan yoxdur. Bəzi qüvvələr həm Avropa Şurasında, həm də Qərb mediasında və digər qurumlarda Azərbaycan əleyhinə sistemli iş aparırlar. İlqar Məmmədov olmasın, başqa adam tapacaqlar. Söhbət budur. Bu gün Azərbaycan vətəndaşları Dilqəm, Şahbaz öz torpaqlarında girövdurlar. Avropa Şurası ölkələrin suverenliyini tanıyan qurum kimi niyə, Ermənistanı məcbur etmir ki, onları azad et. Axı, bu insanlar Ermənistan ərazisinə getməyib. Eyni məntiqlə BMT-ni göstərmək olar. 4 qətnamə 24 ildir ki, icra olunmur.

***Qarşıdan prezident seçkiləri gəlir. YAP qurultayını nə zaman keçirib, namizədini müəyən edəcək?***

Bizim rayon-şəhər təşkilatlarımız öz konfranslarını yekunlaşdırır. Bu konfranslar özü elə seçkiyə hazırlıq deməkdir. Konfranslarda ötən dövrü hesabatı verilir, çatışmazlıqlar müzakirə edilir, qarşıdakı fəaliyyət üçün istiqamətlər müyyən olunur. Qurultayda isə namizədimiz təbii ki, müəyyən olunacaq.

***- Namizəd İlham Əliyevdir, ya başqa seçim olacaq?***

- İlham Əliyev Yeni Azərbaycan Partiyasının lideridir. Bütün məsələləri qurultay həll edəcək. Qurultay əvəzindən mənim danışmağım doğru olmaz.

## Nazir: "Yeni işə qəbul olan müəllimlərin əmək haqları gələn ildən artırılacaq"



"Son 3 ildə müəllimlərin diaqnostik qiymətləndirilməsi nəticəsində 150 min müəllimin bilik və bacarıqları yoxlanılıb, hər bir pedaqoqun peşəkarlığı barədə məlumat əldə edilib". SİA-nın xəbərinə görə, bunu təhsil naziri Mikayıl Cabbarov müəllimlərə dövlət təltiflərinin təqdimetmə mərasimində çıxış edərkən deyib. Nazirin sözlərinə görə, diaqnostik qiymətləndirmədən keçirilən müəllimlərin əmək haqqı artırılıb, orta aylıq əmək haqqı 465 manat təşkil edib: "Bu ildən başlayaraq,Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş müsabiqə yolu ilə yeni işə qəbul edilən müəllimlər də diaqnostik qiymətləndirmədən keçirilən müəllimlərə bərabər tutulub və onların əmək haqqı gələn ildən artırılacaq".

# Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması sosial siyasətin prioritetidir

Azərbaycanın son onillikdəki sürətli iqtisadi inkişafı, həmçinin, uğurlu sosial siyasəti ölkədə məşğulluq probleminin böyük miqyasda həllinə töhfə verib. Ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində əmək hüququnun qorunması, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması, əməyin ödənişinin təşkilinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və bu kimi digər zəruri proseslər həyata keçirilib. Yeni dövrün - sürətli və dərin islahatlar mərhələsinin çağırışlarına uyğun olaraq əmək münasibətlərinin tənzimlənməsi sistemində də əsaslı dəyişikliklərin məqamı yetişib.



**Əli Əhmədov: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə qeyri-rəsmi məşğulluqla mübarizə davam etdiriləcək və bu cür hallar aşkarlanaraq qarşısı alınacaq"**

Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkədə işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsi, əməyin ödənişinin təşkilinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və bu sahədə dövlət orqanları arasında daha səmərəli koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə, "Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq, "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" təsdiq edilib. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2760 nömrəli Sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası isə Tədbirlər Planının icrasını əlaqələndirəcək və icranın gedişi barədə hər yarımildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verəcək.

Azərbaycan Respublikasının Nazirlər Kabinetində Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası isə iclas keçirərək, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 2017-ci il 9 oktyabr tarixli Sərəncamından irəli gələn vəzifələri müzakirə edib.

Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov bildirib ki, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün bir sıra işlər həyata keçirilib. Bu istiqamətdə layihələr hazırlanıb, sahibkarlarla görüşlər təşkil edilib və onlar arasında əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı maarifləndirmə işləri aparılıb. Sərəncamdan irəli gələn əsas məsələlərdən biri kimi, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün kütləvi informasiya vasitələrində maarifləndirmə işlərinin davam etdirilməsi tövsiyə edilib.

Baş nazirin müavini Əli Əhmədov qeyd edib ki, qeyri-rəsmi məşğulluqla bağlı xeyli sayda fakt aşkarlanaraq, aradan qaldırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə qeyri-rəsmi məşğulluqla mübarizə davam etdiriləcək və bu cür hallar aşkarlanaraq qarşısı alınacaq.

Müzakirələrdə yeni iş yerlərinin yaradılması, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və qeyri-rəsmi məşğulluğun aradan qaldırılması məsələlərinin prioritet olduğu vurğulanıb. Həmçinin, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması ilə bağlı normativ- hüquqi aktların təkmilləşdirilməsi məsələsinə də toxunulub. Qeyd olunub ki, dövlətimizin başçısının tapşırığına əsasən, bu istiqamətdə lazımi işlər görülür. Bundan başqa, komissiya qarşısında qoyulan vəzifələrin icrasını təmin etmək üçün təşkilati məsələlər, tədbirlər planından irəli gələn tapşırıqların icrasının tənzimlənməsi və işin səmərəli təşkil edilməsi məqsədilə hazırlanan nəzarət cədvəli forması, qeyri-rəsmi məşğulluğun qarşısının alınması ilə bağlı qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məsələləri də müzakirə mövzusu olub. Sonda "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"ndan irəli gələn məsələlərə ciddi nəzarət edilməsi məqsədilə xüsusi icraya nəzarət mexanizminin yaradılması, iş qrafikinin müəyyənləşdirilməsi, hər 3 aydan bir komissiyanın iclasının keçirilməsi ilə bağlı razılığa gəlinib.

Göründüyü kimi, dövlət vətəndaşların sosial rifahını düşünərək, qeyri-rəsmi əmək münasibətlərinə son qoyaraq, bütün iş prosesini rəsmiləşdirməyi qarşısına prioritet olaraq qoyub. Bu isə, əlbəttə ki, insanların bugünkü və gələcək həyatı üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki əmək münasibətlərinin rəsmiləşdirilməməsi ciddi iqtisadi və sosial xarakterli həm ictimai, həm də şəxsi problemdir. Qeyri-rəsmi məşğulluq, hər şeydən əvvəl, ölkədə əmək resursları, əmək bazarı barəsində aydın məlumatlar əldə etməyə imkan vermir. Bu isə, öz növbəsində, iqtisadi proqnozların hazırlanıb həyata keçirilməsi, əmək resurslarından səmərəli istifadə edilməsi qarşısında böyük çətinliklər yaradır. Bundan əlavə, əmək münasibətlərinin rəsmiləşdirilməməsi sayəsində əməkhaqqı ilə bağlı göstəricilər lazımi uçotdan kənarda qalır və beləliklə də, makroiqtisadi göstəricilərin səviyyəsi olduğundan xeyli aşağı düşmüş olur. Lakin qeyd edilərin əmək münasibətlərinin rəsmiləşdirilməməsinin yaratdığı problemin heç də ən böyüyü, ən ziyanlısı deyil. Qeyri-rəsmi məşğulluq gizli iqtisadiyyata aparan birbaşa yoldur. Əgər əmək münasibətləri rəsmiləşdirilməyibsə, deməli, yaradılan milli gəlir də dəqiq qeydə alınmır və vergidən yayındırılır.

***"Səs" Analitik Qrupu***

# AŞPA-nın komitə iclasında Azərbaycanın sosial sahədə uğurlu təcrübəsindən danışılıb




Dünən Parisdə AŞPA-nın sosial məsələlər, sağlamlıq və davamlı inkişaf üzrə komitəsinin Avropa Sosial Xartiyası üzrə alt komitəsinin Avropa Sosial Xartiyasının departamenti və Parlament Assambleyasının parlament layihələrinə dəstək şöbəsi ilə birlikdə "İş, təlim və bərabər imkanlar: hamı üçün ədalətli rəftar və inteqrasiyanı necə təmin etməli" mövzusunda parlament seminarı keçirilib. AZƏRTAC xəbər verir ki, seminara Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, Avropa Sosial Xartiyası üzrə alt komitənin sədri Sevinc Fətəliyeva sədrlik edib. Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli seminarda çıxış edərək ölkəmizdə sosial sahədə görülən işlər barədə məlumat verib. O, əmək hüququ, peşə yönümünün müəyyənləşməsi, cəmiyyətin həssas qrupunun üzvlərinə bərabər imkanlar yaradılması sahələrində həyata keçirilən islahatlardan danışıb. Milli Məclisin komitə sədri əlillərin işlə təmin olunması sahəsində Azərbaycan təcrübəsindən, onlara dövlət qayğısı və diqqətindən söz açıb. Ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün olduğu üçün bu sahəyə xüsusi diqqət yetirildiyi, əmək tutumlu iş yerlərinin yaradıldığı, hökumət tərəfindən maliyyə dəstəyinin göstərildiyi, güzəştli kreditlərin verildiyi diqqətə çatdırılıb. Həmçinin ölkədə 10 il ərzində 1 milyon 200 min iş yerinin yaradıldığı vurğulanıb. Bundan başqa, Prezident İlham Əliyevin təşəbbüsü ilə son illər emal müəssisələrinin sayının artması, aqrar sahənin və turizmin inkişafı ilə bağlı mühüm addımlar atıldığı bildirilib. Hadi Rəcəbli Azərbaycanda özünüməşğulluq təsisatının yaradıldığını, heyvandarlıq, arıçılıq sahələrində iş yerlərinin açılması üçün maliyyə vəsaiti ayrıldığını qeyd edib. O, işsizlikdən sığorta institutunun fəaliyyətindən, onun məşğulluq xidmətinin işini köklü şəkildə dəyişməsindən söz açıb. Qeyd olunub ki, məşğulluq sosialı müdafiənin əsas pilləsidir. Peşə təhsilinin artırılması istiqamətində ölkəmizin təcrübəsi seminar iştirakçılarında xüsusi maraq doğurub. Seminarda iştirak edən 34 ölkənin nümayəndələri Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda əmək münasibətlərinin tənzimlənməsi, əmək tutumlu iş yerlərinin yaradılması və əhalinin sosial durumunun yaxşılaşdırılması istiqamətində görülən ardıcıl işlər haqqında məlumatlandırılıblar.

## AMEA-da görüş olub



AMEA Rəyasət Heyətində Çexiyanın Eksperimental və Tətbiqi Fizika İnstitutunun (ÇETFİ) direktoru İvan Ştekl və bu müəssisənin yaradıcısı və keçmiş rəhbəri Stanislav Pospişil ilə görüş keçirilib. AMEA-dan SİA-ya verilən xəbərə görə, məqsəd AMEA ilə ÇETFİnin müvafiq sahələrdə əməkdaşlıq imkanları və iki elmi qurum arasında imzalanacaq müqavilənin əsas müddəalarını müzakirə etmək idi. Sonra görüşdə AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev, Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, akademik Nazim Məmmədov, İşlər İdarəsinin müdiri, siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev, Rəyasət Heyəti aparatının Beynəlxalq Əlaqələr İdarəsinin rəhbəri, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva və İctimaiyyətlə Əlaqələr və Elmin Populyarlaşdırılması İdarəsinin rəhbəri Zülfüqar Fərzəliyev də iştirak ediblər.

Görüşdə AMEA-nın prezidenti, akademik Akif Əlizadə rəhbərlik etdiyi qurumda prioritet elmi istiqamətlər üzrə aparılan araşdırmalar və həyata keçirilən layihələr barədə məlumat verib. A.Əlizadə AMEA-nın beynəlxalq əlaqələrindan söz açaraq vurğulayıb ki, bu qurum 10-dan çox Avropa ölkəsi ilə əməkdaşlıq edir, birgə layihələr həyata keçirir. Qonaqlar AMEA-nın Fizika, Geologiya və Geofizika institutları, Respublika Seysmoloji Xidmət Mərkəzi, Yüksək Texnologiyalar Parkı və digər qurumları ilə tanış olaraq buradakı müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyaları və görülən işləri yüksək qiymətləndiriblər, əməkdaşlıqda maraqlı olduqlarını ifadə ediblər.

Sonda hər iki qurum imzalanacaq müqavilə çərçivəsində eksperimental tədqiqatları əsas tutaraq fundamental elmlər sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, tətbiqi xarakterli işlərin görülməsi istiqamətində fikir mübadiləsi aparıblar. Hər il görülmüş işlərin nəticələrinə və gələcək planlara həsr olunan seminarların keçirilməsi, informasiya və kadr mübadiləsinin aparılması və s. barədə razılığa gəliblər.

# Naxçıvan Dövlət Universitetinin tələbələri Türkiyədə klinik təcrübə və dərslərdə iştirak edəcəklər



Naxçıvan Dövlət Universitetinin (NDU) təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin baytarlıq ixtisasının 2 müəllim və 10 tələbədən ibarət heyəti oktyabrın 29-dan noyabrın 4-dək Türkiyənin Ərzurum Atatürk Universitetinin baytarlıq fakültəsində klinik təcrübə və dərslərdə iştirak edəcəklər. NDU-nun mətbuat şöbəsindən AZƏRTAC-a bildirilib ki, bu münasibətlə keçirilən tədbirdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov dünyanın 80-dən çox tanınmış universiteti ilə tərəfdaşlıq edən bu ali məktəbin Türkiyə universitetləri ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini deyib. Rektor qeyd edib ki, bu əlaqələrin təməli 1992-ci ildə Ərzurum Atatürk Universiteti ilə əməkdaşlıq vasitəsilə qoyulub və qardaş ölkənin 40-a yaxın ali təhsil ocağı ilə əməkdaşlıq bu gün də uğurla davam etdirilir. Tərbiyə işləri üzrə prorektor Şamxal Məmmədov çıxışında tibb fakültəsinin və baytarlıq ixtisasının tələbələrinin müxtəlif vaxtlarda Ərzurum Atatürk Universitetində təcrübədə olduğunu, müştərək konfranslarda fəal iştirak etdiyini diqqətə çatdırıb.

Baytarlıq kafedrasının müdiri Yunis Rüstəmli müəllim və tələbələrin növbəti təcrübə dövründən səmərəli istifadə edərək, Naxçıvan Dövlət Universitetini layiqincə təmsil edəcəklərinə əminliyini bildirib.

# "Ermənistanın Azərbaycana hərbi təcavüzünün yaşyarımlıq Zəhra Quliyeva faciəsi"

Dünən Xətai rayonu 249 nömrəli tam orta məktəbdə millət vəkili Aydın Mirzəzadənin "Ermənistanın Azərbaycana hərbi təcavüzünün yaşyarımlıq Zəhra Quliyeva faciəsi" adlı kitabının təqdimatı olub. SİA-nın verdiyi məlumata görə, kitabın məsləhətçisi Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov, tərtibçisi isə Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İcra Katibliyi Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadədir. Xətai rayonu 249 nömrəli tam orta məktəbin direktoru Nizami Bayramov çıxış edərək deyib ki, tarix boyu dinc, silahsız mülki şəxsləri qətlə yetirmək, hədəfə almaq ermənilərin, daha sonra da Azərbaycan torpaqları üzərində qurulan Ermənistan adlanan dövlətin başlıca siyasəti olub və bu çirkin siyasət davam edir: "Füzulinin Alxanlı kəndində azyaşlı Zəhra Quliyeva və onun nənəsinin qətlə yetirilməsi dünya mediasının ən çox müzakirə etdiyi məsələlər sırasındadır. Bununla bağlı dünyanın bir sıra ölkələrində Ermənistan səfirlikləri və nümayəndəlikləri qarşısında etiraz aksiyaları keçirilir, işğalçı dövlətin siyasəti pislənilir. Şübhə yoxdur ki, Ermənistan bu qətliamla dünya ictimaiyyətinin gözündə bir daha alçalmış, kiçilmiş oldu. Dünya mediasının faciə ilə bağlı obyektiv xəbərləri sözsüz ki, təqdirəlayiqdir və alqışa layiqdir. Öz peşə vəzifəsini vicdanla yerinə yetirən bu nəşrlər nəhayət ki, işğala məruz qalanla işğalçını seçməyə müvəffəq olurlar və bu fakt da Azərbaycanın haqq işinin ədalətli olmasından xəbər verir". Millət vəkili Aydın Mirzəzadə bildirib ki, bu ilin iyul ayının 4-də Ermənistan hərbçiləri axşam saatlarında Füzuli rayonunun Alxanlı kəndini atəşə tutaraq yaşyarımlıq Zəhra Quliyeva və onun nənəsini qətlə yetirdilər: "Bu hadisə Azərbaycan cəmiyyətində böyük əks-səda doğurdu. Azərbaycan hərbçiləri də bunun qisasını aldılar. Amma Zəhra Quliyeva ağrısı hələ də qəlbimizdədir. Belə bir fikir yarandı ki, bu məsələ ilə bağlı ancaq rəsmi materiallar əsasında bir kitab hazırlansın. Kitabın məsləhətçisi Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovdur. Qısa bir zamanda Azərbaycan dövlət hakimiyyətinin, xarici rəsmi dairələrin, parlamentlərin, beynəlxalq təşkilatların bu məsələyə dair münasibətləri kitaba toplandı. Həmçinin kitabda Ermənistan rəsmi hakimiyyətinin və xaricdə yaşayan erməni diaspor nümayəndələrinin münasibətləri də yer alıb."



Millət vəkili əlavə edib ki, belə bir kitabın nəşr edilməsi bu hadisəni arxivləşdirmək və gələcək nəsillərə artıq rəsmi materiallar əsasında çatdırmağa kömək edəcək: "Bu bir faktoloji materialdır. İndi və gələcəkdə biz Ermənistan tərəfini bu vəhşiliklərə görə, rəsmi materiallar əsasında ittiham edə biləcik. Hesab edirəm ki, Azərbaycanın tarixi ilə bağlı bütün məsələlər yazılmalı, gələcək nəsillərə çatdırılmalı və öz tariximizi olduğu kimi göstərməyi bacarmalıyıq. Mən kitabda Xətai rayonu 249 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdi Nəsibə Seyidovanın Zəhra Quliyevanın öldürülməsi ilə bağlı özünün təşəbbüsü ilə çəkdiyi bir şəkili yerləşdirdim. Nəsibə Seyidova heç bilmirdi ki, onun çəkdiyi rəsm kitabda yerləşdiriləcək. Bugün həmin məktəbə gələrək kitabı ona təqdim etmək üçün gəldim və məktəbin uğurları ilə tanış oldum". Daha sonra kitab məktəbin 5-ci sinif şagirdi Nəsibə Seyidovaya təqdim olunub.

# YAP-ın 25 illik yubileyi ilə bağlı tədbirlər davam edir






### XAÇMAZ

Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar YAP Xaçmaz rayon təşkilatının Hacıəlibəyli ərazi ilk partiya təşkilatlarında YAP-ın yaranmasının 25 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib.

Tədbirlər Gənc Heydərçilərin ifasında himnlə başlanılıb. Tədbirdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının Hacıəlibəy ərazi ilk partiya təşkilatının sədri Mehparə Mustafayeva ölkəmizin ən aparıcı siyasi qüvvəsi olan YAP-ın yaranma tarixindən, partiyanın müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmlənməsində və ölkəmizin inkişafındakı mühüm rolundan ətraflı danışıb: "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qətiyyəti və iradəsi ilə yaradılmış Yeni Azərbaycan Partiyası bu gün həm ölkə daxilində, həm də regionda lider partiyaya çevrilib".

Tədbirdə partiya fəallarından Xanlar Mədətov, YAP Xaçmaz rayon təşkilatı idarə heyətinin üzvü Bəxtiyar Haqverdiyev, şura üzvü Gülnaz Şirinova və başqaları çıxış edərək, bildiriblər ki, ölkəmizdə Yeni Azərbaycan Partiyası özünün sıralarında 700 mindən artıq partiya üzvünü birləşdirərək, böyük sosial bazaya malik olmaqla, ölkəmizin ictimai-siyasi həyatında mühüm və sanballı rol oynayan siyasi təşkilatdır. Yaradıcısı Ümummilli Lider Heydər Əliyev ideyaları ilə silahlanmış YAP, eyni zamanda, regionda ən böyük siyasi təşkilatdır.

Çıxışlardan sonra partiya sıralarına daxil olmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub. Həmçinin, Ulu Öndərə həsr olunan şeirlər dinlənilib.

Xaçmaz şəhər 3 saylı məktəb ərazi ilk partiya təşkilatında keçirilən tədbirdə təşkilatın sədri İslam Zahirov Yeni Azərbaycan Partiyasının yarandığı tarixi şəraiti ətraflı təhlil etmiş, partiyanın yaradılması zərurətindən, 25 il ərzində partiyanın keçdiyi yol və ölkə həyatında çox mühüm siyasi rolu barədə danışıb.

Tədbirdə YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov, aparatın rəhbəri Fazil Rəhmətov və başqaları çıxış edərək, vurğulayıblar ki, Ulu Öndərin dediyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyası olaraq hələ uzun illər doğma Azərbaycan xalqının və Azərbaycan dövlətinin gələcəyi naminə fəaliyyət göstərəcək, bunun üçün hər bir partiya üzvü öz iradəsini ortaya qoyacaqdır.

### CƏLİLABAD

Yeni Azərbaycan Partiyasının Cəlilabad rayon təşkilatı partiyanın yaranmasının 25 illik yubileyi ilə əlaqədar silsilə tədbirləri davam etdirir. Belə ki, rayon təşkilatının təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, növbəti tədbir rayon təşkilatının gənclər birliyinin təşkilatçılığı ilə "Yeni Azərbaycan Partiyasının gənclər siyasətinin aktual məsələləri" mövzusunda keçirilən dəyirmi masa olub. Tədbiri giriş sözü ilə YAP Cəlilabad rayon təşkilatı aparatının rəhbəri, idarə heyətinin üzvü İbrahim Qələmov açaraq, partiyanın yaranmasının 25 illik yubileyi münasibətilə gəncləri təbrik edib. İ.Qələmov Yeni Azərbaycan Partiyasının yarandığı tarixi şərait, 25 il ərzində keçdiyi yol və ölkə həyatında mühüm siyasi rolu barədə gənclərə məlumat verib.

Tədbirdə rayon təşkilatı gənclər birliyinin sədri Vüsal Kazımov çıxış edərək, qeyd edib ki, dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası 25 ildir ki, möhtəşəm uğurlara imza ataraq, ölkə siyasətində çox mühüm yer tutur: "Ulu Öndər



Heydər Əliyev tərəfindən yaradılan Yeni Azərbaycan Partiyası dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik-hüquqi və dünyəvi dövlətin formalaşdırılması, respublikanın ərazi bütövlüyünün bərpası, sabitliyə, əmin-amanlığa nail olunması, Dağlıq Qarabağ probleminin həlli, ölkə əhalisinin dinc və firavan həyat şəraitində yaşaması təmin etmək kimi mühüm tarixi vəzifələrin həyata keçirilməsində böyük siyasi rol oynayıb. Yeni Azərbaycan Partiyası yarandığı gündən öz sıralarını ən fəal insanlar, o cümlədən, gənclər çoxluq təşkil etməklə, bu partiyanın üzvü olmağımızla qürur və fəxr duyuruq. Bütün gənclər ölkəmizin Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin qəbul etdiyi ali qanunlara və irəli sürdüyü bütün önəmli vəzifələrə hörmət bəsləyir və sadiq qalırıq".

Tədbirdə YAP rayon təşkilatı idarə heyətinin üzvü, rayon təşkilatı gənclər birliyinin sədr müavini Elçin Hüseynov, rabitə işçiləri Asim Mustafayev, Ramin Babayev, təhsil işçisi Ələkbər Niftiyev, kənd təsərrüfatı işçisi Aqil Qurbanov və başqaları çıxış edərək, Ulu Öndərin əsasını qoyduğu siyasi kursun Prezidentimiz, partiyamızın Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildiriblər.

**R.HÜSEYNOVA**

# Fəxri konsul "ASAN xidmət"də olub

"Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu"nun dəvəti ilə Bakıda səfərdə olan Azərbaycanın Respublikasının Sudan Respublikasında fəxri konsulu Tarıq Hamza Zeynəlabdin 5 saylı Bakı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub. Dövlət Agentliyinin İnformasiya təminatı şöbəsindən SİA-ya verilən xəbərə görə, qonağa "ASAN xidmət" mərkəzlərinin yaradılması məqsədləri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından "ASAN xidmət"in yaradılması ilə səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlər əldə olunub. Bildirilib ki, bu günədək 18 milyona yaxın vətəndaş müraciəti qeydə alınıb. Bundan başqa vurğulanıb ki, "ASAN xidmət" Birləşmiş Millətlər Təşkilatının 2015-ci il Dövlət Xidmətləri Mükafatına (United Nations Public Service Award 2015) layiq görülüb. Daha sonra fəxri konsul T.H.Zeynəlabdin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimovla görüşüb. Görüş zamanı "ASAN xidmət" təcrübəsi, uğurları və yaradıla biləcək qarşılıqlı əmək-



daşlıq münasibətləri müzakirə olunub. Həmçinin, Fəxri konsula Azərbaycanda innovativ islahatlar istiqamətində görülən işlər, "Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu" haqqında da məlumat verilib. Bildirilib ki, Konsorsium ilk olaraq Azərbaycanın innovasiyalar sahəsində ixtisaslaşmış 10 şirkəti özündə birləşdirir və bu sahədə fəaliyyət göstərən şirkətlərin İttifaqı hesab olunur. Konsorsiumun məqsədi və fəaliyyət istiqamətiylə tanış olan qonaq üzv olan şirkətlərə səfər edib və bu şirkətlərin xidmət, məhsulları ilə tanış olub.

# Azərbaycan irqi və dini zəmində münaqişə yaradanlara qarşı barış mövqeyindədir

***Qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər hər bir vətəndaşın əmin-amanlıq və sabit ölkədə yaşamasına şərait yaradıb. Çoxkonfessiyalı və çoxmillətli ölkə olan Azərbaycan multkultural dəyərələrini, tolerant mühitini bəyan edir və özünün xoşməramlı mesajlarını göndərir. Dünyada baş verən böhranlardan və münaqişələrdən uzaq olmaq, birgə tədbirlərin görülməsinə nail olmaq, terrorizmə, münaqişələrə qarşı səmərəli mübarizə aparmaq üçün vətəndaşlıq prinsipləri, insan haqları, bərabərlik amillərini hər zaman diqqətdə saxlayan Azərbaycan terrorizm aktlarını törədənlərə, irqi və dini zəmində münaqişə yaradanlara qarşı barışmaz mövqeyni ortaya qoyur və islam dünyasının həmrəyliyinə öz töhfəsini verir.***

Cinayətkar əməllərini dini şüarlarla pərdələməyə çalışan terrorçu qrupların islam dini ilə heç bir əlaqəsi yoxdur. İslam dini qardaşlıq və birlik dinidir. Azərbaycanda dini və ya milli zəmində qarşıdurma halları baş verməmişdir. Dövlət-xalq birliyinə əsaslanan müdrik siyasət sayəsində ölkəmiz yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir.

Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi bəşəri dəyərlərə olan ali münasbətin daha bir təzahürüdür. "İslam Həmrəyliyi İli" çərçivəsində İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi, 54 müsəlman ölkəsinin Azərbaycanda bir araya gəlməsi islam dünyasında böyük təntənə kimi qəbul olundu. Ölkəmizə gələn hər bir kəs burada tolerantlıq mühitinin hökm sürdüyünü islami dəyərlərə dövlət tərəfindən böyük dəyər verildiyinin bir daha şahidinə çevrildilər. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir.

Dünya ölkələri üçün nümunəyə çevrilən Azərbaycan modeli ölkəmizə gələn hər bir kəsdə maraq doğurur. Qonaqlar abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzini, Katolik Məbədini, İmamzadə Kompleksini, möhtəşəm Heydər Məscidini görür və bunu heyranlıq hissi ilə qarşılayır və Azərbaycan təcrübəsini öyrənməyə çalışırlar.

## "BİZ BU GÜN DÜNYADA ƏN CİDDİ TƏHLÜKƏLƏRDƏN BİRİ OLAN İSLAMOFOBİYAYA QARŞI FƏAL MÜBARİZƏ APARIRIQ"

Bu uğurlu starteji inkişaf yolunda olan Azərbaycanın Ermənistanla olan münaqişəsi, illərdir ki, davam etməkdədir. İşğal nəticəsində Azərbaycanın bir milyondan artıq qaçqın və məcburi köçkünü var. Dövlət başçısı dəfələrlə çıxışlarında Azərbaycanın erməni təcavüzü, ərazimizin işğalı nəticəsində müharibə və humanitar fəlakətdən əziyyət çəkdiyini diqqətə çatdırıb. Bütün mötəbər beynəlxalq təşkilatların müvafiq qətnamə və qərarlar qəbul etdiklərini, Ermənistanın onlara məhəl qoymadığını qeyd edən Azərbaycan Prezidenti bütün bu sənədlərin kağız üzərində qaldığını və qaçqın və məcburi köçkünlərimizin hələ də doğma torpaqlarına qayıda bilmədiklərini qeyd edir: "Biz bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Özünü müsəlman ölkələrinin dostu kimi qələmə verməyə çalışan Ermənistan isə Dağlıq Qarabağ və ətraf bölgələrdə məscidləri və dini abidələri dağıdıb. Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz".

Bəli, qətiyyətlə deyə bilərik ki, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin və etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycandan öyrənəcəyi çox məqamlar var. Terrorizmin baş alıb getdiyi dünyada, islama qarşı hücumların artdığı və islamofobiyanın gücləndiyi bir vaxtda Azərbaycan ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. Belə ki, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

## "AZƏRBAYCANI DÜNYADA MULTİKULTURALİZM MƏRKƏZİ KİMİ TANIDAQ"

Bütün bu göstəricilərin nəticəsidir ki, bu gün Azərbaycan multikulturalizmi dünya miqyasında öyrənilir. Belə ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikulturalizmi" fənninin xarici və ölkə universitetlərində tədrisi layihəsi uğurla davam etdirilir. Hal-hazırda layihə çərçivəsində respublikamızın 40, dünyanın 17 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris edilir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin məlumatına istinadən cari ilin oktyabr ayının sonlarından etibarən bu sıraya daha bir xarici universitet də əlavə olunub. İsveçin Malmö Universitetinin Qafqazşünaslıq Bölməsində Azərbaycanın multikulturalizm modeli ilə bağlı dərslərə başlanılıb. Dərslərin təşkili barədə razılıq Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Malmö Universitetinin Qafqazşünaslıq Bölməsi arasında bu ilin fevral ayında rəsmiləşdirilib. Dərslər ingilis dilində keçirilir. Universitetin magistrlərindən ibarət qrupda seçmə fənn kimi tədris edilən Azərbaycan multikulturalizminin tədrisi prosesində isveçli tələbələrə ölkəmizdəki multikultural və tolerant mühit, milli-mənəvi dəyərlərimiz, müxtəlif etnik kökə və fərqli dini etiqada malik insanların əsrlərdir dinc yanaşı yaşaması haqqında ətraflı məlumat veriləcək.

Hazırda Hindistan, Cənubi Koreya, Serbiya, Fransa və Rumıniya universitetləri ilə gələcəkdə tədrisin təşkili ilə bağlı danışıqlar aparılır. Sevindirici məqam bundan ibarətdir ki, artıq fənnin tədrisində müəyyən müsbət təcrübə əldə olunub. Ötən il nəşr edilən "Azərbayan multikulturalizminin ədəbi-bədii qaynaqları" və bu yaxınlarda işıq üzü görən "Azərbaycan multikulturalizmi" dərsliyinin istifadəsi də tədrisin keyfiyyətinin daha da yüksələcəyinə əminlik yaradır. Dünyanın nüfuzlu ölkələri Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə müraciət edərək, "Azərbaycan multikulturalizmi" fənninin aparıcı ali təhsil müəssisəslərində tədrisi məqsədilə təkliflərini irəli sürürlər.

Prezident İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıdaq" təşəbbüsünün öz real həllini tapması məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin apardığı ardıcıl və məqsədyönlü işin nəticəsində xaricdə "Azərbaycan multikulturalizmi" fənlərinin tədrisi daha geniş coğrafiyanı əhatə etməkdədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

---



# Anlamazlar sülaləsi...

**RƏFİQƏ**

***Səhvi anlayaraq, onu etiraf etmək hər adamın işi deyil. Hər adamın da işi deyil ki, doğru yolda olsun. Bir də nə vaxtdan əlilər, isalar, leylalar... düz yolda olublar ki, səhvlərini də anlasınlar? Məgər bu kəslərin doğru yolu olub ki, səhvlərini də anlasınlar? Xüsusilə də, son vaxtlar bəzi gənclərimiz var ki, əlilərin, isaların və leylaların pozucu planlarının girdablardan xilas yolunu səhvlərini etiraf etməməkdə görürülər. Buna baxmayaraq, ölkə başçımız dəfələrlə gəncləri səhvlərini dərk etmək üçün əfv fərmanı verməklə azadlığa buraxır ki, etdikləri səhvləri bir də təkrar etməsinlər. Yenə də Ə.Kərimli ölkəmizdə keçiriləcək prezident seçkiləri ərəfəsi gənclərin potensiallarından öz xeyrinə istifadə etməyə səy göstərir və onları mitinqlərə səsləyir.***

Şəxsiyyətini pul-para və qranta görə ayaqlar altına atan adamdan nə gözləmək olar? Bu, o Ə.Kərimli, İ.Qəmbər, L.Yunuslardır ki, qrant əldə etmək üçün Qərbin bir sıra qaranlıq siyasi dairələri, erməni lobbisi, eləcə də, digər anti-Azərbaycan xarakterli qüvvələri qarşısında, məhz aldatdıqları gənclərdən istifadə edib, istədiklərini almağa çalışıblar. Özü də ən yaxşı metodları da "facebook" vasitəsilə çağırış etmələridir. Açıq şəkildə mübarizə meydanına çıxmaqdan ehtiyat etdikləri üçün "facebook"da vaxtaşırı müxtəlif məsələlərə öz təsirləri fonunda don geydirən bu anlamazlar sülaləsi... sosial şəbəkədə müəyyən qeydləri paylaşdıqdan sonra, məhz tələlərinə düşən gənclər onların çağırışlarına təriflər yağdırırlar. Bu anlamazların yanlış siyasətini tənqid edənlərə qarşı təhqirlərə və söyüşlərə start verilir ki, bu işi də həmin tələyə düşən gənclər həyata keçirirlər.

Göründüyü kimi, nə qədər maraqlı olsa da, bu gənclər həbsdə olduqları müddətdə, eyni zamanda, həbsdən çıxarkən belə, adları çəkilən "liderləri" tərəfindən yada salınmırlar. Reallıq da budur ki, bu gün yenə də bu səhvləri edən bəzi gənclər ölkəmizdə keçiriləcək prezident seçkiləri ərəfəsi satqınların, Ə.Kərimli kimi terrorçuların təsiri altında qalmaqda davam edirlər. Hələ də dərk etmirlər ki, dəstək olduqları dağıdıcı müxalifət "liderləri" onları da həbsə atdırmağa hazırlaşır. Həbs olunan hər bir gənc isə onlara siyasi dividend gətirir. Xarici təşkilatlar qarşısında dillər uzanır, ciblərinə isə qrant selləri axır. Bu pul-paraları isə həmin "liderlər" öz "gül balalarına" yedirdirlər - haram tikə kimi!

Fəqət, həbsə düşən gənclərin ailələri və yaxınları bundan nə qədər iztirab çəkirlərsə, bunu bir Allah bilir! Görəsən, Ə.Kərimlinin "gül balası" həbsdə olarsa, o, nə edərdi? Bu zaman belə bir sual ortaya çıxır ki, məgər sizin gül balalarınız, həbsə atdırdığınız, illərlə həbsdə qalaraq, mənəvi əziyyətlər çəkən və bu gün etiraflar edən "NİDA"çı gənclərin nəyindən artıqdır ki?! Yaxud nəyə görə dünənə kimi azadlığa buraxılmalarını tələb etdiyiniz "NİDA"çı gənclər azadlığa çıxan kimi, indi də sizlərin qatı tənqid hədəfinə çevriliblər? Demək, dünənədək etiraf etmədiklərinə görə, onlar sizlərin "əzizləriniz" idi, etiraf etdikdən sonra, dövlətini müdafiə edən çıxışlar etdikdən, ölkə başçısının siyasi xəttini dəstəklədiklərini bəyan etdikdən sonra oldular düşmən?!

Görəsən, Ə.Kərimli, İ.Qəmbər və L.Yunus kimilər gəncləri aldadaraq, öz çirkin niyyətləri vasitəsilə zəhərlədiklərinə görə, insanların övladlarını rüsvayçı siyasətlərinə qurban verdiklərini bundan sonra dərk edəcəklərmi? Mümkünsüzdür. Çünki dərk etmək üçün düşünən baş olmalıdır.

# Ağcabədidə Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar şahmat turnirinə start verilib



YAP Ağcabədi rayon təşkilatının tədbirlər planına müvafiq olaraq məktəblilər arasında Şahmat Məktəbi ərazi ilk partiya təşkilatı ilə birlikdə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə şahmat turnirinə start verilib.

Tədbiri giriş sözü ilə Şahmat Məktəbi ərazi ilk partiya təşkilatının sədri Cavanşir Məmmədov açaraq, YAP-ın yaranma tarixi barədə geniş danışaraq, yubiley münasibətilə rayonda silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. Tədbirlər çərçivəsində Şahmat Məktəbində məktəblilər arasında turnirə bu gün start verildiyini qeyd edib. O, ölkə Prezidenti, YAP-ın Sədri Cənab İlham Əliyevin respublikada idmana göstərdiyi xüsusi diqqət və qayğını tədbir iştirakçılarının nəzərinə çatdırıb: “İstifadə edilən bu gözəl müasir Şahmat Məktəbinin binası Cənab Prezidentin tövsiyəsi əsasında tikilmişdir. 2011-ci ildə istifadəyə verilmiş Şahmat Məktəbinin açılışında ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev iştirak edib”.

YAP Ağcabədi rayon təşkilatının baş məsləhətçisi Ramil Nağıyev çıxış edərək, YAP-ın 25 illik yubileyi münasibətilə gəncləri təbrik edərək, onlara idmanda və təhsildə uğurlar arzulayıb.

Ramil Nağıyev çıxışında YAP-ın yaradıcısı, Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən danışaraq, bu gün də Onun layiqli varisi Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin rəhbərliyi altında partiyanın böyük inkişaf yolunda olduğunu, bildirib və Onun çoxşaxəli fəaliyyəti nəticəsində qazanılmış uğurlar barədə geniş məlumat verib. Rəsmi hissədən sonra şahmat yarışına start verilib. Qeyd edək ki, yarış İsveçrə sisteminə uyğun olaraq 7 gün ərzində yekunlaşacaq.

***ZÜMRÜD***



# Tərtərdə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi qeyd olunub

Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar YAP Tərtər rayon təşkilatında geniş tədbir keçirilib. Öncə, tədbir iştirakçıları Yeni Azərbaycan Partiyasının yaradıcısı, müasir Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzi meydanında ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri qoyaraq, xatirəsini yad ediblər. Rayon Mədəniyyət Mərkəzinin iclas zalında davam etdirilən tədbirdə ilk öncə, Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Dövlət Himni səsləndikdən sonra tədbiri giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov Yeni Azərbaycan Partiyasının yaranmasından, keçdiyi şərəfli və qürurverici tarixindən danışıb: “Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yaradılan Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının böyük rəğbətini qazanaraq, bu gün əsl xalq partiyası kimi fəaliyyət göstərir. Öz sıralarında 700 mindən artıq insanı birləşdirən Yeni Azəraycan Partiyası hazırda özünün şərəfli günlərini yaşayır. Ümummilli Liderimizin layiqli siyasi varisi, möhtərəm Prezidentimiz İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini uğurla davam etdirən YAP, nəinki ölkəmizdə, həm də regionda aparıcı siyasi partiyaya çevrilmişdir”.

R.Şabanov çıxışında onu da bildirdi ki, YAP dünyanın aparıcı siyasi partiyaları ilə yüksək səviyyədə dialoq aparan siyasi təşkilat olmaqla, aparıcı dövlətlərin siyasi partiyalarının tədbirlərində yaxından iştirak edir, eyni zamanda, dünya ölkələrinin siyasi partiyalarının nümayəndələrinin ölkəmizdə keçirilən tədbirlərdə iştiraklarını təmin edir: “Bu gün YAP Tərtər rayon təşkilatı öz sıralarında 6074 nəfər partiya üzvünü birləşdirir. Partiya üzvlərimiz rayonun sosial-iqtisadi və mədəni həyatında sürətli inkişafın təmin olunması istiqamətində görülən işlərdə ön cərgədədirlər”.

Tədbirdə YAP Tərtər rayon təşkilatı şurasının üzvü, rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu YAP-ın ölkəmizin ictimai-siyasi həyatında oynadığı roldan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə cəmiyyətimizin inkişafına və demokratik proseslərin sürətlənməsinə verdiyi töhfələrdən danışdı. Bildirdi ki, xalqın partiyası olan YAP bundan sonra da kəmiyyət və keyfiyyət baxımdan inkişaf edərək, yeni-yeni uğurlara imza atacaq. Tədbir də YAP rayon təşkilatı şurasının üzvü, rayon statistika idarəsinin müdiri Ədalət Məmmədov, YAP rayon təşkilatı gənclər birliyi şurasının üzvü, Cəmilli kənd tam orta məktəbinin direktoru Rəşad Şahbazov, YAP rayon təşkilatı şurasının üzvü, şəhər 2 saylı məktəb-liseyin direktoru Gülarə Əkbərova və digərləri çıxış edərək partiyanın xeyirli və gərəkli fəaliyyətindən danışdılar. Tədbirin sonunda YAP Tərtər rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup partiya fəalına, YAP-ın yaradılmasının 25 illik yubileyi ilə əlaqədar keçirilən idman yarışlarının qaliblərinə fəxri fərmanlar və qiymətli hədiyyələr və partiya sıralarına yeni qəbul olunmuş gənclərə partiya üzvlük vəsiqələri təqdim olunub.

***RƏFİQƏ***

# Deputat: “Bakı-Tbilisi-Qars” çox ciddi layihədir”

“Bakı-Tbilisi-Qars” dəmir yolu xətti layihəsi təkcə region üçün deyil, bütövlükdə hesab edirəm ki, dünya üçün çox ciddi bir layihədir. Belə bir layihə xaricdən hər hansı bir maliyyə dəstəyi alınmadan ilk növbədə Azərbaycanın imkanları hesabına qurulur. Bu yüklərin Azərbaycan ərazisindən keçməklə Türkiyə və oradan Avropaya çatdırılmasına imkan verəcək. Əlbəttə ki, bu layihə Ermənistanın və rəsmi İrəvanı müdafiə edən xaricdə müəyyən dairələrin etirazına səbəb oldu. Onlar çox istəyirdilər ki, bu xətt Ermənistandan keçsin”. Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.





Onun sözlərinə görə, əgər Ermənistan Azərbaycanın ərazi bütövlüyü tanısa idi, qoşunlarını işğal etdikləri Azərbaycan ərazilərindən çıxarsa idi, prinsipcə bu baş verə bilərdi: “Artıq Ermənistan növbəti dəfə iqtisadi və siyasi cəhətdən uduzur. Ona torpaq iddiası etməyimiz Bakı-Ceyhan neft kəmərinin, Bakı-Ərzurum qaz kəmərinin indi isə Bakı-Qars dəmir yolu xəttinin Ermənistandan keçməsinin qarşısını aldı. Bu xəttlərin Ermənistandan keçməsi hər il sadəcə olaraq yer haqqı kimi Ermənistan büdcəsinə milyard dollarla vəsaitin daxil olmasına kömək edə bilərdi. Bu bir daha göstərir ki, beynəlxalq hüquq normalarının gözlənilməsi, dövlətlərin mehriban qonşuluq siyasəti ilə yaşaması həmin dövlətlərin bu günün və sabahının inkişafına ciddi təsir edən amillərdəndir. Azərbaycan bu dəmir yolu xəttini işə salmaqla müstəqilliyindən maksimum istifadə etdiyi və atdığı addımların həm özünün, həm də regionun maraqlarına xidmət etdiyini göstərir.”Bakı-Tbilisi-Qars” dəmir yolu xətti şəxsən ölkə Prezidenti İlham Əliyevin təşəbbüsüdür. Onun tikintisi cənab Prezidentimizin diqqətində olub. Ölkə başçısı növbəti dəfə həqiqi lider olduğunu və tarixi yaradan bir şəxsiyyət olduğunu göstərdi. Bu xəttin açılması iqtisadiyyatın inkişafına və Mərkəzi Asiyadan gələn yüklərin qısa bir zamanda Azərbaycan-Gürcüstan-Türkiyə vasitəsilə dünyanın digər regionlarına çatdırılmasına kömək edəcək”.

# DTX növbəti antiterror əməliyyatı keçirib

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) aparılan cinayət işi üzrə intensiv antiterror tədbirləri davam edir. DTX-nın İctimai əlaqələr şöbəsindən SİA-ya verilən məlumata görə, 2017-ci il oktyabrın 27-də radikal-dini ekstremist cinayətkar birliyin üzvləri, Suriya, İraq dövlətlərinin ərazilərində dini ekstremizm zəminində təlim və döyüşlərdə iştirak etmiş Azərbaycan Respublikasının vətəndaşları Əliyev Həsrət Əlihüseyn oğlu, Nəsrullayev Emil Rövşən oğlu, Dadaşov Elşad Hüseynağa oğlu və Eynalov Zaur Talıb oğlu saxlanılaraq cinayət məsuliyyətinə cəlb ediliblər. Dövlət Təhlükəsizliyi Xidməti Azərbaycan Respublikasında terrora hazırlıq və cinayətkar birlikdə iştirak etmə faktları üzrə aparılan cinayət işi ilə bağlı istintaq sirri ilə məhdudlaşmayan hissədə video-audio materialları ictimaiyyətə təqdim edəcək.



# YAP rayon təşkilatlarında partiyanın 25 illik yubileyilə bağlı tədbirlər davam edir



## YEVLAX

Dünən Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatı partiyanın 25 illik yubileyi münasibəti ilə "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" adlı elmi-praktik konfrans keçirib. Tədbir iştirkçıları ilk öncə, Yevlax şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Ulu Öndərin büstü önünə gül dəstələri düzüblər. Həmçinin, Dahi Liderin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Sonra gənclər konfrans zalında Yeni Azərbaycan Partiyasının fəaliyyət sferasını əks etdirən vidio-çarxa baxıblar.

Tədbiri YAP Yevlax şəhər təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev açaraq, bildirib ki, Yeni Azərbaycan Partiyasının qurucusu Böyük Şəxsiyyət Heydər Əliyev siyasətinin gənclər tərəfindən öyrənilməsi prioritet məsələdir. Çünki sağlam gənclik yalnız sağlam siyasi əqidə və uğurlu yolla inkişaf edə bilər. Yeni Azərbaycan Partiyası Azərbaycan gəncliyinin sabaha ümidi və gələcəyinin təminatçısıdır.

Tədbirdə YAP Yevlax şəhər təşkilatı gənclər birliyinin sədri Ariz Mikayılov bildirib ki, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının məsuliyyəti biz gənclərin çiyinləri üzərindədir. Tədbirdə rayon gənclər və idman idarəsinin baş məsləhətçisi Etibar Məmmədov, YAP fəalları Rəşad Qurbanov, Mahir Əmirov, Mürsəl Göyüşov və başqaları Yeni Azərbaycan Partiyasının uğurlu və şərəfli yol keçdiyini bildiriblər.

Sonda YAP Yevlax şəhər təşkilatı qadınlar şurasının sədri Əminə Əhmədova müstəqil Azərbaycanın qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyev ideyasının layiqli davamçısı, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Azərbaycanda eləcə də ölkəmizdən kənarda həyata keçirdiyi dünya miqyaslı layihələrin uğurlu nəticələrindən danışıb.



## XIZI

Dünən YAP Xızı rayon təşkilatında Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi ilə bağlı tədbir keçirilib. Tədbirdə YAP Xızı rayon təşkilatının sədri Fərrux Haqverdiyev bu günlər ölkənin hər yerində Azərbaycanın siyasi həyatında əhəmiyyətli rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümünün qeyd olunduğunu bildirib. F.Haqverdiyev Yeni Azərbaycan Partiyasının ölkəmizin çətin və böhranlı dövründə obyektiv zərurətdən meydana çıxdığını vurğulayaraq, dövlətin və cəmiyyətin həyatında müəyyən rol oynadığını, bu gün partiyanın Sədri, Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində yeni-yeni uğurlara yol açdığını söyləyib.

Tədbirdə YAP Xızı rayon təşkilatı qadınlar şurasının sədri Jalə Süleymanova, gənclər təşkilatının üzvü İman Ağayev və rayon icra hakimiyyətinin başçısı Xəzər Aslanov çox ağır və çətin şəraitdə yaradılan Yeni Azərbaycan Partiyasının təsis olunduğu gündən şərəfli bir yol keçdiyini, cəmiyyətin əsas aparıcı siyasi təşkilatına çevrilməsindən və partiyanın cəmiyyətdə rolundan danışıblar.

## MASALLI



Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının tədbirlər planına uyğun olaraq, Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibəti ilə "Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir" devizi altında silsilə tədbirlərini davam etdirir. Növbəti tədbir dünən Hişkədərə ərazi ilk partiya təşkilatında "Yeni Azərbaycan Partiyası müasir Azərbaycanın inkişaf tarixinin bələdçisidir" mövzusunda keçirilibdir.

Tədbir iştirakçıları ilk öncə, Yeni Azərbaycan Partiyasının qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad ediblər. Sonra Hişkədərə ərazi ilk partiya təşkilatının sədri Qumra Cəfərova çıxış edərək, Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, əldə etdiyi nailiyyətlərdən və ölkənin ictimai-siyasi həyatındakı rolundan bəhs edib. Bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qətiyyəti və iradəsi ilə yaradılan Yeni Azərbaycan Partiyası bu gün həm ölkə daxilində, həm də regionda lider partiyaya çevrilib.

Q.Cəfərova, həmçinin qeyd edib ki, Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası ölkə Prezident İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib: "Bu gün YAP milli siyasi iradəni təmsil edən və xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvəyə çevrilib. Azərbaycan bu gün xalq-iqtidar birliyinin nəticəsində Ulu Öndərin müəyyən etdiyi strateji xətlə inamla inkişaf edir".

Tədbirdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının baş təlimatçısı Eldar Kazımov, partiya fəallarından Rahilə Əhədova, İlham Ağayev, Firəngiz Xəlilova, İsrafil İsrafilov və başqaları çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan və əldə etdiyi uğurlardan bəhs ediblər.

*Rəfiqə HÜSEYNOVA*

# Yeni Azərbaycan Partiyası 25 - Gürgən-Pirallahı marafonu böyük maraqla qarşılanıb

***Dünən Pirallahı rayonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə marafon yarışı keçirilib. YAP Pirallahı rayon təşkilatının təşəbbüsü ilə keçirilən marafona 400-ə yaxın təşkilatın gənc fəalı və rayon sakini qatılıb.***





Tədbirdə YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov iştirakçıları salamlayaraq, Azərbaycanda dövlətçiliyin qorunmasında, ölkəmizin tərəqqisində YAP-ın rolunu xüsusi vurğulayaraq, bildirib ki, Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq, bu partiyanın sıralarına qoşulmuş 700 minə yaxın insan partiyanın Sədri, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, ölkəmizin inkişafına mühüm töhfələr verirlər. Ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışan H.Şikarov Azərbaycan idmançılarının Olimpiya, Avropa və Dünya çempionatlarındakı parlaq qələbələrindən söhbət açıb. "Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin tapşırığına əsasən, ölkəmizdə idmanın kütləviliyinin artırılması, uşaq, yeniyetmə və gənclərin fiziki sağlamlıqlarının möhkəmləndirilməsi prioritet istiqamətlərdən biridir"-deyə qeyd edən natiq, onu da bildirib ki, rayonda gənclər siyasəti və idmanın inkişafı istiqamətində, mütəmadi olaraq işlər aparılır: "Bu işlər gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, gənclərə sağlam həyat tərzinin aşılanması, onların problemlərinin həllinə dəstək və istedadlı gənclərin aşkar olunmasına şərait yaradır. Müxtəlif idman yarışları və turnirlər keçirməklə rayonda həm idmanın inkişafı, həm də kütləviliyinin artırılması sahəsində tədbirlər həyata keçirilir. Diqqətə çatdırıldı ki, Pirallahı idmançıları da dünya və ölkə çempionatlarında xeyli sayda medallar qazanıblar".

Çıxışların ardınca, marafona start verilib. İştirakçılar Gürgən qəsəbəsinin "Qala divarları kompleksin"dən hərəkət edərək, Pirallahı qəsəbəsində Ulu Öndər Heydər Əliyevin Postamentinə qədər məsafəni qət ediblər. Marafonun uzunluğu, ümumilikdə 10 kilometr olub.

Sonda qaliblərə YAP Pirallahı rayon təşkilatı tərəfindən qiymətli hədiyyələr və fəxri fərmanlar təqdim edilib.

*Rövşən NURƏDDİNOĞLU*

# Baş prokuror Sabirabadda vətəndaşlarla görüşüb

Baş prokuror Zakir Qaralov oktyabrın 27-də Sabirabad rayon prokurorluğunun inzibati binasında Şirvan şəhəri, Sabirabad, Hacıqabul, Saatlı və Salyan rayonlarından olan vətəndaşlarla görüşüb. Baş Prokurorluqdan SİA-ya bildirilib ki, bu qurumun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən görüşdə 24 vətəndaş qəbul olunub, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

# Ukraynalı mer: "Bakı Şopinq Festivalı ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyətə malikdir"



Bakı Şopinq Festivalı Ukraynanın Truskaves şəhərinin meri Andrey Kulçinskidə xoş təəssürat yaradıb.SİA-nın məlumatına görə, mer ölkəmizdə keçirilən şopinq festivalı ilə bağlı festivalın saytına açıqlama verib. "Bakı Şopinq Festivalının keçirilməsi şərtləri və əhatə dairəsi ilə tanış olandan sonra mən bir daha başa düşdüm ki, bir ölkə üçün gəlir mənbələrinin diversifikasiyası nə qədər əhəmiyyətlidir. Mənim belə layihələrdən xoşum gəlir. Bu tip layihələr daxili və xarici turizmin artımına səbəb olur, biznesi canlandırır. Mən şəxsən bu layihədə yaxşı planlaşdırma və təşkilatçılıq gördüm" - deyə, mer qeyd edib.

O, ümid edir ki, bu günlərdə Bakıda səfərdə olan həmyerliləri yaradılmış alış-veriş imkanından mütləq istifadə edəcəklər: "Bakıda olan bütün dostlarıma və yaxınlarıma festivalda iştirak etməyi və uğurlu alış-verişdən sonra yaxşı əhval-ruhiyyə arzu edirəm".

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

28 oktyabr 2017-ci il

# “Milli Şura”nın terror təşkilatı ilə iş birliyi üzə çıxır

## *Rəylər və araşdırmalar bunu deməyə əsas verir*

***Məlum olduğu kimi, qabaqcadan əlbir olan bir qrup şəxsin partlayıcı maddələr əldə edib dini ekstremizm zəminində Azərbaycan Respublikası ərazisində terror aktları planlaşdırdıqları barədə Dövlət Təhlükəsizliyi Xidmətinə daxil olmuş məlumat aparılan araşdırmalarla təsdiqlənmiş və qeydə alınan fəaliyyətləri təxirəsalınmaz tədbirlərin görülməsini zəruri etmişdir. Uğurlu əməliyyatla terror aktı planlaşdıranlar məhv edilmişdir. İlkin araşdırma zamanı, məlum olmuşdur ki, terrorçu qrup müxalifətin mitinqlərində də terror aktları həyata keçirməyi nəzərdə tutubmuş. Maraqlıdır ki, dağıdıcı müxalif ünsürlər, xüsusilə də, Əli Kərimli bu əməliyyatı təqdir etməkdənsə, əks-mövqe sərgiləyir. Söhbət etdiyimiz müsahiblərimiz Dövlət Təhlükəsizlik Xidmətinin həyata keçirdiyi əməliyyatını və müxalifətin mitinqlərində terror aktı törətməyə hazırlaşan dəstəni ifşa etməsinə Ə.Kərimlinin öz dar düşüncəsinə uyğun yanaşma nümayiş etdirməsi onun qaranlıq dairələrlə iş birliyində olduğunu göstərir.***





**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, millət vəkili Fərəc Quliyev: “Mitinqləri alver obyektinə çeviriblər”**

- Uğurlu əməliyyat onu göstərdi ki, Azərbaycan hüquq-mühafizə orqanları sayıqdırlar və kifayət qədər formalaşıblar. Onlar Azərbaycan dövlətinin təhlükəsizliyini təmin etmək iqtidarındadırlar. Bu, düşmənlər üçün bir mesajdır. Azərbaycan Prezidentinin hər kəsə bərabər tərzdə yanaşdığı ortadadır və bir daha sübut olundu ki, siyasi mövqeyindən, dini mənsubiyyətindən asılı olmayaraq, hər hansı ölkə vətəndaşına qarşı təhdid, terror və hüquq pozuntusu olarsa, qarşısı dərhal alınır və sərt ölçü götürülür. Kimsə qərəzli yanaşma, müsahibə, açıqlama verirsə bu artıq həmin insanların Azərbaycanın gücünü, hüquq-mühafizə orqanlarının çevikliyini, peşəkarlığını gözdən salmaq, başqa ölkələrə bağlılıqlarından və ölkəmizin inkişafında maraqlı olmadıqlarından xəbər verir. Onlar sevinmək, təqdir etmək, çox sağ ol demək əvəzinə, qurumlarımızı gözdən salmağa çalışırlar. “Milli Şura”ya icazə verilir ki, buyurun gedin, sözünüzü deyin, aksiya keçirin. Amma məlum olur ki, mitinqlərdə özlərinin fotolarını çəkdirir və sonra həmin insanlar mühacir adı ilə xarici ölkələrə gedirlər. Yəni mitinqləri alver obyektinə çeviriblər. Çox kiçik bir toplumun hansısa fikir bildirməsi ciddi qüvvə kimi meydana çıxmaq demək deyil.

**Azərbaycan Sosial-Demokrat Partiyasının sədri, millət vəkili Araz Əlizadə: “Əli Kərimlini ətrafı da ciddi qəbul eləmir”**



- “Milli Şura” ölü qurumdur. Ölünün də “qıdığı” gəlməz. Kimsə uğursuz mini-aksiyalarda terror aktı törətmək istəyirsə, o, ancaq bataqlıq içində boğulan Ə.Kərimliyə ucuz şöhrət gətirmək məqsədi daşıyır. Ə. Kərimli artıq hesaba alınmayan bir siyasətçidir: “Fakt budur ki, Ə. Kərimlini ətrafı da ciddi qəbul eləmir. Ona görə də, Ə. Kərimli mənasız şoular yaratmaqla vəziyyətdən çıxmağa və bununla da öz qiymətini artırmağa uğursuz cəhd edir. Xüsusilə də, xarici ağaları qarşısında nüfuzunu artırmağa çalışır. Bu mitinqlərin keçirilməsinin çox böyük əhəmiyyəti var. Çünki onlar nə qədər çox mitinq keçirsələr və bu mitinqlərə nə qədər az insan toplansa, bir o qədər də özlərini ifşa edirlər. Bununla da, etiraf edirlər ki, onlara xalqın dəstəyi yoxdur. Mitinqlərə ancaq öz qohum-əqrəbalarını və pulla insanlar yığırlar. Bu isə, onların növbəti ifşasıdır.

**Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli: “AXCP kimi partiyalar maşa rolunu oynayır”**

- Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi antiterror əməliyyatı çox ciddi bir məsələdir. Nəyə görə? Biz görürük ki, son dövrlər Azərbaycana qarşı xaricdən edilən təsirlər var. Belə hadisələrin baş verməsi ilə həm xaricdən, həm də daxildən Azərbaycanın sabitliyini pozmaq istəyirlər. Həmin qruplar bu və ya digər formada maliyyələşdirən dairələr tapılıb üzə çıxarılmalıdır. Ancaq nə etmələrindən asılı olmayaraq, onlar heç vaxt Azərbaycanda sabitliyini poza bilməzlər. Ümumiyyətlə, bu gün müxalifət düşərgəsini təmsil edən şəxslərin bu cür hərəkətlərə əl atması stəkanda fırtına törətmək deməkdir. Dağıdıcı müxalifətin guya “bunların keçirəcəkləri aksiyalara kütləvi şəkildə insanlar gələcək” demələri reallığı özündə əks etdirmir. Çünki müxalifətin keçirilən aksiyalarına ancaq özlərinin yaxın qohumları və partiyalarında təmsil olunan şəxslər qatılır. “Milli Şura” və AXCP kimi partiyalar maşa rolunu oynayır. Bununla da, maliyyə yardımları almağa ümid bəsləyirlər.



**AMİP funksioneri Əli Orucov: “Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi əməliyyat yüksək peşəkarlığın nümunəsidir”**

- Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi əməliyyat yüksək peşəkarlığın nümunəsidir. Əməliyyatla bağlı verilən açıqlamanı şübhəyə almazdım. Çünki dövlətin təhlükəsizliyinin dayağı olan bir qurum hansısa səbəbə görə, qeyri-ciddi bir bəyanat verməz. DTX əməliyyatın detallarına kimi açıqlama verib. Belə biri mötəbər qurumun məlumatlarına mən şübhə etməzdim və kimsə hansısa maraqlarına əsasən, hay-küylü fikirlər səsləndirirsə, bunu da qeyri-ciddi yanaşma hesab edərəm. “Milli Şura” təmsilçilərinin mitinqlərin kütləvi surətdə keçiriləcəyi barədə fikirlərini onların subyektiv düşüncələrinin məhsulu hesab edirəm. Hər kəsin özünü təriflməsi şərt deyil. Aparıcı müxalifət partiyasına iddia edən şəxsin keçirdiyi aksiyalarda ən azı 10-15 min adam olmalıdır. Görürsünüz ki, bunların keçirdiyi aksiyalarda 2 mindən yuxarı adam olmur. Bu da, ondan irəli gəlir ki, onların iddialı fikirləri özlərini reklam etməkdən başqa bir şey deyil. “Milli Şura”nın planlaşdırdığı növbəti aksiyanın baş tutacağına da inanmıram .

**GÜLYANƏ**



# Eldəniz Quliyevin tulapayı, yaxud Əli Kərimlidən “xalqı söy” təlimatı

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***AXCP sədri Əli Kərimlinin “Milli Şura”nın mitinqinə qatılmaqdan imtina edənləri söyüş və təhqir obyektinə çevirməsi kampaniyası davam edir. Daha öncəki mitinqlərdə də yaşanan bənzər olay bir daha təkrarlanmaqdadır. Ə.Kərimlinin çirkin siyasətinə dəstək göstərməyənlərə qarşı ən iyrənc üsullar nümayiş etdirən ucuz fərdlərdən biri də onun yan-yörəsində quyruq bulayan Eldəniz Quliyevdir. Ümumiyyətlə, siyasi arenada ayağısürüşkən kimi tanınan bu ünsür “Milli Şura”nın koordinasiya şurasının üzvü olaraq özünü çox “ağıllı” birisi kimi sərgiləməyə çalışsa da, ondan yalnız söyüş söydürmək üçün istifadə olunur. Bu isə E.Quliyevin nə qədər lazımsız bir məxluq olduğunu, əslində, kifayət qədər təsdiq etmiş olur.***

Sən demə, bu adam yolla gedərkən, guya bir nəfərin mitinq çağırışına qulaq yoldaşı olub və işlətdiyi “meydanı boş qoyanın papağı boş qalacaq” sözü bunun xoşuna gəlib. Ona görə də, feysbuk səhifəsində həmin “adamın” sözlərini yazıb. Ancaq burada kimsə deyə bilməz ki, E.Quliyev, məhz bu sözü özündən uydurmayıb. Yəni xalqa söydüyü söyüşünü hansısa “x” birinin adına yazıb. Fəqət, fakt budur ki, E.Quliyev həmin təhqiredici ifadələri dəstəkləyib. Yəni o, mitinqin keçiriləcəyi meydanı boş qoyacaq insanları “qeyrətsiz” olmaqda ittiham edib!

Bunun isə digər səbəbləri də var. Misal üçün, E.Quliyev də Ə.Kərimli qədər sosial şəbəkədə “layk” xəstəliyinə tutulub, bununla feysbukda diqqət cəlb etmək istəyir. O cümlədən, erməni lobbisinin maliyyələşdirdiyi xarici qurumlardan mitinqlər üçün əldə edilmiş vəsaitdən tulapayı almaq üçün E.Quliyev Ə.Kərimli qarşısında it oyunbazlığı göstərir.

Bu arada Ə.Kərimlinin mitinqə guya “30 min” insanın qatılacağını gözlədiyini deməsi və bu fikirləri ətrafında manipulyasiyalar etməsi də nəzərdən yayınmayıb. Çünki ötən mitinqlərin bu mitinqlə heç bir fərqi yoxdur. Hətta bu mitinqə, ümumiyyətlə, daha az insanın toplaşacağını deyə bilərik. Yeri gəlmişkən, bu həmin “Milli Şura”dır ki, 2013-cü ildə prezident seçkilərinə sayılı günlər qalanda 20-ci sahədə jurnalistlər üçün tikilmiş binanın qarşısındakı stadionu doldura bilməmişdi. İndi də bənzər hal “Məhsul”da davam edir və əgər balaca bir stadionu Kərimlinin yüz minlərlə üzvü olduğunu dediyi AXCP doldura bilmirsə, onda mitinq keçirməyə kiçik bir klub boyda yer də bəs edər. Özü də mitinq deyil, piket...

Fakt isə budur ki, söyüş, təhqir kimi ifadələrlə kimsənin marağında olmayan aksiyaya insanların cəlb olunacağını düşünən həmin ünsürlər, bununla özlərini xalqdan təcrid etməyə də israrlıdırlar. O cümlədən, söydükləri hər bir söyüş 100% onların özlərinə geri dönür. Əmin ola bilərlər. Elə Ə.Kərimlinin quyruq bulayan iti E.Quliyev də buna şübhə etməsin...

# Azərbaycanın mədəni irsinin özünəməxsusluğu qorunub saxlanılır




***Xalqımızın milli-mədəni irsi ölkəmizin uzaq keçmişini və zənginliyini təsdiq edən əsas amillər olmaqla yanaşı, həm də Azərbaycan xalqının tarixini özündə yaşadan zəngin informasiya mənbəyidir. Maddi və mənəvi irsimiz xalqımızın bu torpaqların qədim sakini olduğunu təsdiq edir. Belə bir tarixi özündə yaşadan və nəsildən-nəslə keçib gəlmiş milli-mədəni irsimizin qorunmasına, öyrənilməsinə, təbliğinə son illər dövlətimiz tərəfindən böyük qayğı və diqqət göstərir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan öz milli dəyərlərinə sadiqdir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan və saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan və çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir".***



Azərbaycanın mədəni irsinin özünəməxsusluğunun qorunub saxlanılması, tarix-mədəniyyət abidələrinin öyrənilməsi və mühafizəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilməkdədir. Qeyd edək ki, "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na əsasən, bu istiqamətdə bir çox işlər görülüb və davam etdirilir. Bu günə qədər respublika ərazisində 6300-dən artıq tarix və mədəniyyət abidələrinin qeydə alındığını nəzərə alsaq, onların müasir tələblərə uyğun şəkildə mühafizəsinin, tədqiqinin və təbliğinin nə qədər mürəkkəb bir iş olduğunu təsəvvür etmək çətin deyil. Məhz buna görə də, Dövlət Proqramından irəli gələrək abidələrin mühafizə, bərpa, konservasiya, tədqiqat və təbliğat işlərinin təkmilləşdirilməsi istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirilir. Belə ki, Azərbaycan dövlətinin mədəniyyət abidələrinə, xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə, qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara diqqət və qayğı ilə yanaşılır. Azərbaycan arxeoloqlarının uzun illər ərzində apardıqları tədqiqatlar nəticəsində, ölkəmizin dünyada ən qədim insan məskənlərindən, erkən sivilizasiya mərkəzlərindən biri olması maddi faktlarla sübuta yetirilmişdir. Gəgəli nekropolu da ölkəmizin belə tarixi abidələri sırasındadır. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Şamaxı rayonuna səfərləri zamanı rayonun Dəmirçi kəndində yerləşən Gəgəli nekropolunda aparılan arxeoloji tədqiqatlar nəticəsində aşkara çıxarılmış maddi mədəniyyət nümunələri, tədqiqatların gedişatı və nəticələri ilə yaxından tanış olub. Azərbaycan Prezidenti Cənab İlham Əliyevə inşası nəzərdə tutulan Dəmirçi Arxeoloji-Etnoqrafik Muzeyinin layihəsi də təqdim edilib.

Qeyd edək ki, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşlarının 2016-cı ildə Dəmirçi-Lahıc yolunun 4-cü kilometrliyində, Gəgəli yaylağı adlanan ərazidə apardıqları araşdırmalar nəticəsində 1,5 hektar ərazidə nekropol olması müəyyən edilib. İnstitutun Şamaxı-Ağsu arxeoloji ekspedisiyasının apardığı qazıntılar zamanı ərazidən qızıl və gümüşdən bəzək əşyaları, muncuqlar, sikkələr və digər maddi-mədəniyyət qalıqları aşkarlanıb. Bu il nekropolda aparılan qazıntılar zamanı 18 qəbir açılıb. Əldə edilən maddi-mədəniyyət nümunələri əsasında Gəgəli nekropolunun son antik və ilk orta əsrlərə aid edildiyi məlum olub.

Avqust-sentyabr aylarında aparılan tədqiqatlar zamanı nekropolun yaxınlığında qala divarları və yaşayış məskəninin qalıqları tapılıb. Qala divarlarının bünövrəsindən eramızdan əvvəl IV-III əsrlərə aid təknə qəbir fraqmentləri, qadın və körpə uşağa məxsus iki daş qutu qəbir aşkar edilərək, tədqiq edilib. Qalanın daxilində aparılan araşdırmalar zamanı isə V-XIII əsrlərə aid saxsı nümunələri, insan skeleti və heyvan sümüklərinin hissələrinə rast gəlinib. Aşkar edilmiş maddi-mədəniyyət nümunələri əsasında bu yaşayış məskəninin uzun müddət insanların sığınacaq yeri olduğu müəyyən edilib.

Dəmirçi Arxeoloji-Etnoqrafik Muzeyinin təşkili ölkəmizin turizm potensialının inkişafına böyük təkan verəcək, Şirvan bölgəsinin, xüsusilə, Şamaxı rayonunun turizm infrastrukturunun genişləndirilməsinə şərait yaradacaq.

***ZÜMRÜD***



# Enerji şaxələndirilməsi istiqamətində çox qətiyyətli addımlar

## *Azərbaycanın regionda və dünya dövlətləri arasındakı artan mövqeyi gələcəkdə daha böyük miqyasları əhatə edəcək*

***Bəlli olduğu kimi, ötən ay Türkiyənin İstanbul şəhərində 22-ci Dünya Neft Konqresi keçirildi və bu toplantıda Azərbaycanın neft-qaz ixracatçısı olan ölkələr sırasındakı özünəməxsus yeri və rolu bir daha öz təsdiqini tapdı və heç şübhəsiz ki, bu da təsadüfi deyil. Məhz bu rol Azərbaycanın beynəlxalq çəkisinə də müstəsna təsir göstərir.***

Belə ki, onu da xatırlatmaq yerinə düşərdi ki, İstanbulda "Enerji gələcəyimizə körpülər" devizi altında təşkil olunan 22-ci Dünya Neft Konqresinə 100-dən çox ölkədən 50 nazir, 5 mindən çox dövlət nümayəndəsi və şirkət rəhbərləri qatılmışdı. Məhz belə bir mötəbər toplantıda ölkəmizin başda Prezident İlham Əliyevlə təmsil olunması qürurverici idi.

Çünki Azərbaycan beynəlxalq dairələrdə etibarlı tərəfdaş kimi xarakterizə olunur. Eyni zamanda, ölkəmiz öz ehtiyatlarından konstruktiv, tərəflər üçün faydalı olacaq əməkdaşlıq mühiti şəraitində istifadə edir, heç bir halda bu resursları təzyiq rıçaqı kimi istifadə etmir.

### Prezident İlham Əliyev: "Biz yaxşı başa düşürük ki, tərəfdaş ölkələrlə birlikdə icra etdiyimiz layihələr bir çox ölkələrin enerji balanslarını və enerji təhlükəsizliyini təmin edəcək, onlara kömək edəcək"

Bu arada, dövlətimizin başçısı Cənab İlham Əliyevin konqresdə, prezidentlərin tədbirindəki çıxışı zamanı Azərbaycanın enerji təhlükəsizliyi məsələsindəki mövqeyindən bəhs edərkən irəli sürdüyü əhəmiyyətli tezisləri bir daha xatırlamaq olarp. Belə ki, ölkə rəhbərimiz vurğulamışdı: "Azərbaycan öz məsuliyyətini dərk edir. Biz yaxşı başa düşürük ki, tərəfdaş ölkələrlə birlikdə icra etdiyimiz layihələr bir çox ölkələrin enerji balanslarını və enerji təhlükəsizliyini təmin edəcək, onlara kömək edəcək. Ümid edirəm ki, yaxşı nəticələr göstəririk."

Yeri gəlmişkən, daha bir mühüm faktor - Azərbaycan yalnız neft ölkəsi deyil, həm də böyük qaz ehtiyatları olan qaz ixracatçısı kimi daim dünya bazarında diqqət mərkəzində olmasıdır. Əbəs yerə deyil ki, ölkəmizin dünya bazarlarındakı qaz alıcıları şəbəkəsi mütəmadi olaraq genişlənməkdədir.

Prezident İlham Əliyev Azərbaycanın qaz ixracatçısı ölkəsi kimi rol almasını "Cənub Qaz Dəhlisi" layihəsi ilə əlaqələndirdiyi zaman vurğulayıb: "Cənub Qaz Dəhlizi" layihəsinin icrasında yeddi ölkə iştirak edir: Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Üç Balkan ölkəsi də gələcəkdə Cənub Qaz Dəhlizi"nə qoşula bilər. Bu istiqamətdə də müvafiq işlər aparılır. Yəni biz bu layihənin coğrafiyasını genişləndiririk, gələcəkdə daha da genişləndirə bilərik. Çünki bu, hər bir ölkəyə fayda gətirən təşəbbüsdür. Bu layihənin icrası onu göstərir ki, burada iştirak edən bütün ölkələr və şirkətlər qazanc əldə edirlər. Biz elə bir gözəl əməkdaşlıq formatı yaratdıq ki, həm hasilatçılar - yəni Azərbaycan, həm tranzit ölkələr və həm də istehlakçılar burada ortaq maraqlar əsasında çalışırlar. Məhz bu maraqlar balansı bu böyük layihənin uğurlu icrasına gətirib çıxarıb. Çünki burada həm texniki, maliyyə, iqtisadi, siyasi məsələlər kifayət qədər çoxdur. Artıq bu gün, demək olar ki, "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra ediləcək və Azərbaycan bundan sonra uzun illər ərzində həm bölgə, həm də Avropa ölkələrini təbii qazla təmin edəcəkdir."

### Azərbaycan qazı Avropaya nəql ediləcək yeganə yeni qaz mənbəyidir

Beləliklə, qeyd edilən amillərin təhlilini apararkən, bir daha əmin ola bilərik ki, Azərbaycanda yürüdülən uğurlu neft və qaz siyasəti beynəlxalq arealda ölkəmizin enerji təhlükəsizliyindəki rolunu dəfələrlə artırmış olur. Daha dəqiq desək, qaz amili dünyada enerji təhlükəsizliyini təmin edən əsas şərtdir. Bu baxımdan, Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində öz töhfəsini daha öncələr verdiyi kimi, bu dəfə də həmin ənənəsinə sadiq qalmaqdadır. Həmçinin, ölkə rəhbərimizin irəli sürdüyü fikirlərdən, həm də belə qənaətə gəlməyə zəmin yaranır ki, Azərbaycan qazı Avropaya nəql ediləcək yeganə yeni qaz mənbəyidir: "Bu qaz ehtiyatları yeni xətlə Avropa bazarlarına çıxarılacaqdır. Yəni bizim üstünlüyümüz ondan ibarətdir ki, burada hər iki amil var. Bu da enerji şaxələndirilməsi istiqamətində çox ciddi bir addımdır."

Nəticə olaraq, xalqımız bir daha əmin olur ki, Azərbaycanın regionda və dünya dövlətləri arasındakı artan mövqeyi gələcəkdə daha böyük miqyasları əhatə edəcək. Bu isə, ilk növbədə, dövlətimizin güclənməsi, çiçəklənməsi və tərəqqisində əhəmiyyətli məqamları ehtiva edəcək.

***Rövşən NURƏDDİNOĞLU***

TƏRS BAXIŞ

# Əli Kərimli reallığı

## *Yaxud "məzlum", "kasıb" və "əzabkeş" müxalifət "liderinin" 83 min 600 AZN-lik "Mazda CX9"u*



***Sirr deyil ki, AXCP sədri, əslində isə, daha çox bloggerliklə məşğul olan Əli Kərimli özünü hər zaman kasıb, məzlum və əzabkeş kimi göstərməyə cəhd edib. O öz çıxışlarında işsizlikdən, imkansızlıqdan gileylənməklə yanaşı, məhz bu vasitə ilə ictimai rəy qarşısında xal toplamağa çalışıb. Yəni rəsmi olaraq heç bir iş yeri, gəlir mənbəyi göstərilməyən AXCP sədrinin, əslində, "kasıb" donuna girərək, nə qədər maddi imkanlara malik olmasını bilən bilir. Çünki hazırkı dövrə qədər Ə.Kərimlinin gizli biznesləri, mülkləri, oğlu Türkel Kərimlinin Avropanın mərkəzində eyş-işrətə, kef-damağa xərclədiyi pullar barədə səhih faktlara əsaslanan onlarca məlumatlar dərc olunub.***

### Necə ola bilər ki, sən kasıbyana libasda mitinqə qatılasan, ancaq həmin mitinqə ictimai nəqliyyatla deyil, son model "Mazda CX9" avtomobili ilə gələsən?!

O da əbəs deyil ki, bir vaxtlar yanında olub, sonradan Kərimlinin çirkin məqsədlərindən agah olanlar mətbuata çoxsaylı dəlillər göstərib, onun Qərbdəki ermənipərəst dostlarından aldığı qrantlar və mitinqlər keçirmək üçün əldə etdiyi vəsait haqda etiraflar ediblər.

Ümumiyyətlə, Ə.Kərimlinin girdiyi rol heç də onun uğurlu artist olmasına dəlalət etmir. Ən yaxşı halda isə, onun artistliyi sirk klounluğu ilə əvəzlənə bilər. Məsələn, diqqət etmisinizsə, Kərimli mitinqlərə eyni paltarları geyinib gəlməklə, guya sıravi cəbhəçilərdən seçilmədiyini, onlardan biri olduğunu göstərməyə çalışıb. Lakin özü, necə deyərlər, öz paxırını açıb. Necə ola bilər ki, sən kasıbyana libasda mitinqə qatılasan, ancaq həmin mitinqə ictimai nəqliyyatla deyil, son model "Mazda CX9" avtomobili ilə gələsən?! Axı kasıb olmaqla, bu cür bahalı avtomobil, ümumiyyətlə, uzlaşmayan görüntüdür! Bilməyənlərə xatırladaq ki, AXCP sədrinin mindiyi maşının qiyməti 83 min 600 manatdır!

Yenə də sual yaranır: bir adam rəsmi gəliri yoxdursa, o zaman lüks avtomobilə necə sahib olub? Yaxud Ə.Kərimli üçdən çox cangüdəni (!) və sürücüsünün aylıq maaşlarını hansı vəsaitlərlə, hansı qazancları ilə ödəyir? Bu sualın cavabı yenə də verilməmiş qalmaqdadır. Ancaq bu, o demək deyil ki, həmin suallara cavab vermirsə, ictimai rəy Kərimlinin qazanc mənbələrindən xəbərsizdir.

Beləliklə, fakt budur ki, sözügedən faktlar onun müxalifət "liderliyindən" şəxsi biznesi kimi istifadə etdiyini sübut edir. Ə.Kərimli reallığı da, məhz budur.

**Rövşən RƏSULOV**

**P.S.** *Saxta partiya vəsiqələrinin verilməsindən tutmuş mitinqlər üçün ayrılan qrantlaradək bütün vəsaitlər Kərimli tərəfindən mənimsənilir. Sıravi cəbhəçilər, eləcə də, bəzi şəxslər hələ də anlamırlar ki, "Milli Şura"nın çətiri altında keçirilən mitinqlər Kərimli və C.Həsənli cütlüyünün ciblərini doldurmaq üçündür.*

# Terrorçular ifşa olunur

***Bu gün Azərbaycanın ən böyük sərvəti onun sabitliyidir. Ancaq məkrli qüvvələr bu uğurları hədəfə götürərək, ora zərbə vurmağa çalışırlar. Məkrli qüvvələrdən olan AXCP sədri Əli Kərimli və ətrafının xəyanət, qisasçılıq, intriqantlıq və terrorçu toplumu olduğu dəfələrlə sübuta yetirilib.***



### Əli Kərimlinin terrordan çıxan çörəyi

Bəlli olduğu kimi, qabaqcadan əlbir olan bir qrup şəxsin partlayıcı maddələr əldə edib, dini ekstremizm zəminində, Azərbaycan Respublikası ərazisində terror aktları planlaşdırdıqları barədə Dövlət Təhlükəsizliyi Xidmətinə daxil olmuş məlumatın ardınca təxirəsalınmaz tədbirlər görülüb və ölkəmizin hüdudlarından kənarda fəaliyyət göstərən dini ekstremist terror təşkilatının tabeçiliyini qəbul etmiş bir qrup şəxs keçirilən əməliyyat tədbiri zamanı silahlı müqavimət göstərdiyinə görə məhv edilib.

Bu hadisənin növbəti məqamlarından biri də, artıq məhv edilmiş terrorçu dəstənin "Milli Şura"nın 3 gün sonra keçirilməsi planlaşdırılan növbəti mitinqində partlayış törətmək cəhdlərinin ifşa edilməsi və onun arxasında Ə.Kərimli izinin görünməsidir. AXCP sədri "Milli Şura"nın mitinqində qəsdən qanlı hadisənin törədilməsi üçün maraqlı olub. Çünki belə bir hadisə baş versəydi, o, erməni lobbisinin və xarici havadarlarının vasitəsi ilə dövlətçilik maraqlarımıza qarşı ardıcıl zərbələr vurmağa başlayacaqdı. Ancaq DTX-nın göstərdiyi çeviklik və həyata keçirilən təxirəsalınmaz əməliyyat Ə.Kərimlinin planlarını alt-üst etdi. Xarici dairələrdə özü haqqında Azərbaycan müxalifətinin tək lideri təsəvvürünü formalaşdırmaq və xaricdən gələn maliyyə axınının özünün büdcəsinə daxil olmasına zəmin yaratmaq istəyini də ürəyində qoydu.

### Əli Kərimli Azərbaycanda sosial şəbəkələrə də saxtakarlıq gətirib

Siyasətçinin ən önəmli davranışı səhvlərdən nəticə çıxarmaq və həmin səhvləri təkrarlamamaq bacarığıdır. Əgər siyasətçi səhvləri sıralayırsa və ən pisi, onları təkrarlayırsa, bu, primitiv düşüncənin, hədsiz ambisiyaların və gerçəyi anlamamağın, şərtlərin diktəsini başa düşməməyin natamamlıq kompleksinin göstəricisidir.

Bu izahı Ə.Kərimliyə ünvanlamırıq. Çünki Ə.Kənimli satqınlıq simvolu olmaqla yanaşı, həm də satılan zatdır. AXCP və "Milli Şura"nın ötən mitinqi fiasko ilə başa çatan, meydana 1000 nəfəri belə toplaya bilməyən, uğursuzluğun səbəbini "interneti kəsmişdilər"dən tutmuş, "mitinqə gələnləri Bakıya girişdə tuturdular" kimi yalanlarla ört-basdır etməyə çalışan Ə.Kərimli zavallı açıqlamaları, riyakar Cəmil Həsənli isə qeyri-ciddi bəyanatları ilə gündəmdə qalmaqla terrorçuluq istəklərini həyata keçirmək istəyən zatlardır.

Bu, o Ə.Kərimlidir ki, cinayətkarları "siyasi məhbus", "vicdan məhbusu" və "din məhbusu" adlandırır. Əslində, həmin adamların cinayətləri konkret terrorçuluqdur! Həm də, təkcə onların yox: özünü normal və sivil siyasətçi kimi qələmə verən Ə.Kərimli hansı məntiqlə "İŞİD" terrorçusunu "siyasi məhbus" kimi təqdim edərək, mitinqə adam toplamalıdır?

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Niyaməddin Orduxanlının sözlərinə görə, Ə.Kərimlinin keçirdiyi mitinqlər bir daha AXCP sədrinin gülünc vəziyyətə düşdüyünü sübut etdi: "Azərbaycan xalqı Ə.Kərimlinin, hətta "sosial aksiya" adı ilə təyin etdiyi mitinqə belə dəstək vermir. Bu adam mitinqi siyasi deyil, sosial aksiya kimi təqdim edirdi. Bu adam istəyirdi ki, əhalinin onun çağırışına dəstək verib-verməyəcəyini görsün. Ancaq unudur ki, xalq Ə.Kərimlini son 22 ildə çox yaxşı tanıya bilib. Xalq yaxşı bilir ki, Ə.Kərimlinin Əbülfəz Elçibəyə etdiyi xəyanət hansı formada olub. Bu adam kimlərə xəyanət etməyib? O, hər kəsi öz maraqlarına qurban verənin biridir. Vaxtilə Lalə-Şövkət Hacıyeva Ə.Kərimlinin etdiyi xəyanətə görə məhz onu nəzərdə tutaraq, demişdi ki, əyninə şalvar geyinən hər kişiyə kişi deməzlər. Digər tərəfdən, bu adam 2013-cü ildə Rusiyanın dəstəyi ilə "Milli Şura" adı ilə hakimiyyətə gəlmək istəyirdi. İndi isə utanmadan mitinqə Avropa İttifaqının bayrağı ilə çıxır. Bu riyakar siyasətçiyə kim dəstək verər? Cəmiyyət yaxşı bilir ki, bu mitinqin arxasında Ə.Kərimlinin şəxsi maraqları durur".

N.Orduxanlı onu da bildirib ki, Ə.Kərimli Azərbaycan siyasətinə xəyanəti gətirən bir insandır: "Eyni zamanda, o, Azərbaycanda sosial şəbəkələrə saxtakarlıq gətirib. Saxta profillərlə insanları təhqir edir, təhdid edir və bu yolla özünə tərəfdar toplamağa çalışır. Ona görə də, Azərbaycan xalqı Ə.Kərimliyə dəstək vermir".

**Rəfiqə HÜSEYNOVA**



## "Milli Şura" xarici dairələrin tapşırıqlarını yerinə yetirən bir təşkilatdır

"Milli Şuranın mitinq keçirmək arzusunun reallaşması Azərbaycanda olan demokratik mühütlə bağlıdır". Bu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Onun sözlərinə görə, belə bir mitinqin keçirilməsinə ehtiyac yoxdur: "Çünki Milli Şura cəmiyyətdə heç bir sosial dayağı olmayan və müəyyən tapşırıqlar yerinə yetirən bir təşkilatdır. Sabaha planlaşdırılan mitinq də müəyyən tapşırıqların icrasına hesablanıb. Yəni ölkəmizdəki sabit mühiti pozmaq istəyən müəyyən xarici dairələr var ki, onlar özlərini radikal müxalifət adlandıranları maliyyələşdirir və müəyyən tapşırıqlar verirlər. Buna görə də Milli Şura adlandırılan qurum pul qarşılığında həmin sifarişləri icra edir. Bu gün Azərbaycan vətəndaşı ölkədəki sabitliyini və inkişafını qoruyub saxlamaq istəyir və heç vaxt məkrli siyasət yürüdənlərin arxasınca getməyəcək. Ölkə başçımız İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da inkişaf edəcək" .

## "Milli Şura ölkədə sabitliyi pozmaq niyyətindədir"

***"Milli Şura"nın prezident seçkiləri öncəsi aktivləşməsi sifarişlə atılan addımlardan biridir. Bu, birmənalı şəkildə xarici dairələrin göstərişidir. Bu sözləri SİA-ya açıqlamasında QHT sədri Səbuhi Abbasov deyib.***



Onun sözlərinə görə, mitinq iştirakçıları etiraf edirlər ki, aksiylarda iştirak edənlərə vəsait verilir: "Bəs Milli Şura bu qədər maliyyəni haradan əldə edir. 80 minlik avtomobillə mitinqə gələn Əli Kərimli mitinqlərə on minlərlə pul xərcləyir. Artıq hər kəsə məlumdur ki, erməni lobbisinin pulları Əli Kərimliyə xarici ölkələrdə olan bank hesabları vasitəsi ilə çatır. Bunun müqabilində isə Milli Şura ölkədə olan sabitliyi pozacağını vəd edib. Xalqımız hər şeyi yaxşı başa düşür və gedən prosesləri görür. Milli Şura həm də ölkədə sağlam müxalifətin formalaşmasının qarşısını alır, yüzlərlə gənci öz maraqlarına qurban verir. Bu səbəbdən keçirilən bütün mitinqlər heç bir effekt verməyəcək".

# Azərbaycan adət-ənənələri: qonaqpərvərlik

***Azərbaycan əsrlər boyu milli ənənələri olan qüdrətli, humanist və tolerant bir ölkədir. Adət-ənənələr azərbaycanlıları anadan olduğu məqamdan bütün ömürləri boyu müşayiət edir. Bundan başqa adət-ənənələr xalqın özünəməxsus qonaqpərvərliyində, onun mədəniyyətində, qədim etiqadlarında, milli geyimlərində, xalq gəzintisində təcəssüm etmişdir.***

Buna görə də, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının adət-ənənələri haqqında deyirdi: “Azərbaycan xalqını əsrlər boyu yaşadan, onu böyük bəlalardan, fəlakətlərdən qurtaran Azərbaycanın əsrlər boyu yaratdığı mənəvi dəyərlər olmuşdur. Ölkəmiz keçmişdəki kimi, xüsusən də, bu gün bəşəri dəyərləri, xüsusilə bərqərar edərək, onları öz milli ənənələri ilə, milli-mənəvi dəyərləri ilə birləşdirir. Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində və onun kökündə də tolerantlıq var”.

Azərbaycan xalqı qonaqpərvərliyi ilə seçilən bir xalqdır. Xalqımızın təkrarolunmaz zəngin tarixində qonaqpərvərlik mühüm yer tutmuş bu gün də Azərbaycan xalqının milli xarakterinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycanda olmuş görkəmli yazıçılar və səyyahlar daim Azərbaycandakı qonaqpərvərlikdən bəhs etmiş, öz əsərlərində, memuarlarında bu barədə ağızdolusu yazmışlar. Tarixi mənbələr rus çarı I Pyotrun Dərbənddə, Kıyaz Dolqorukun Bakıda, A.Bestujevin Qubada, Lermontovun Qusarda qonaqpərvərliklə qarşılanması onlarda Azərbaycan xalqına hörmət və ehtiram yaratmışdır. Qonaqpərvərlik haqqında islam dinində, Allahın Peyğəmbəri (s) Muhəmmədin çoxlu müdrik və dəyərli sözləri vardır. Onlardan bir neçəsini diqqətinizə çatdırıram:

Allahın Peyğəmbəri (s): “Allaha və qiyamət gününə iman gətirən şəxs öz qonağına hörmət etməlidir”.

“Qonaq öz ruzisini gətirir və ev əhlinin günahlarını aparar”.

“Yemək verən şəxsin ruzisi və yeməyi, onunçün bıçağın dəvənin hörgücünə batmasından daha sürətlə gəlib çatar”.

“Qonaq gəlməyən evə mələklər daxil olmaz”.

İmam Əli (ə): “Allah kimə sərvət versə, onunla öz qohumlarına kömək əlini uzatmalı və qonaqpərvərlik etməlidir”.

“Biharul-ənvar”: Bir gün İmam Əlini (ə) qəmli halda gördülər. Səbəbini soruşanda Həzrət (ə) buyurdu: “Yeddi gündür ki, evimizə bir qonaq gəlməyib”.

Qonaqlığa layiq olanlar haqqında Allahın Peyğəmbəri (s) demişdir: “Allaha xatir sevdiyin şəxsi öz yeməyinə qonaq et”.

“Öz süfrəsinə varlıları qonaq edən və yoxsulları çağırmayan şəxsin dəvətini qəbul etmək məkruhdur”.

Möminin dəvətini qəbul etməyə həvəsləndirmək haqqında Allahın Peyğəmbəri (s): “Öz ümmətimdən burada olanlara və olmayanlarına tövsiyə edirəm ki, müsəlmanın dəvətini beş mil məsafədən olsa da, qəbul etsinlər. Çünki bu iş dinin bir hissəsidir”.

“Kişinin bir qonaqlığa dəvət olunduqda, dəvəti qəbul etməməsi və yaxud qəbul edib, amma yemək yeməməsi ədəbsizlikdir”.

Uzun əsrlər boyu qonaqpərvərlik Azərbaycan xalqının həyat tərzinin ayrılmaz hissəsinə çevrilmişdir. Bu barədə tədqiqatçı Şirin Bünyadova yazır: “Qonaqpəvərlik uzun bir inkişaf yolu keçmişdir və hansı dövrdə icra edildiyindən asılı olmayaraq, insanların həyat normasına çevrilmişdir. Təbii ki, qonaqpərvərliyə xas olan adətlər hər bir dövrdə müvafiq surətdə icra olunmuşdur. Bu baxımdan konrkret dövrün müvafiq qanunauyğunluqlarını nəzərdən qaçırmaq olmaz. Bunu nəzərə almaq ona görə vacibdir ki, obyektiv şəraitdən doğan və hər hansı bir dövrün tarixi mənzərəsinin yaratdığı lövhələri göz önümüzdə daha dolğun canlandırmağa imkan yaranır.

İlk sinifli cəmiyyət və dövlətlərin yaranması qonaqvərvərlik adətinə yeni çalarlar gətirmişdir. Belə ki, qonşu ölkələrlə daimi əlaqələr saxlayan dövlət başçıları, nəinki oradan gələn hökmdarları, eləcə də, qasid və elçiləri də qəbul edərkən müəyyən qaydalara, qonaqpərvərliyə riayiət etmişlər”.

Azərbaycanın XII əsr görkəmli şairi Nizami Gəncəvi yazmışdır: “Sən mənim qonağımsan, ey saf insan. Qonağı əziz tutmaq gərəkdir”.

Burada qonağa olan münasibət gərəkli bir iş kimi qələmə verilir. Bu insanların psixoloji düşüncə tərzinə sirayət etmiş icrası zəruri hesab olunan bir davranış nümunəsi kimi təqdim olunur. Fars nəsrinin görkəmli əsəri olan “Qabusnamə”də Əbu-Şükürdən belə misal çəkilir: “Qonaq ya dost olsun və yaxud düşmən. Gərək layiqincə hörmət edəsən”.

Orta əsrlərdə qonaqlara musiqinin müşayiətilə qonaqlıqlar vermək bir adət halını almışdı. Arif Ərdəbili əsərlərində qonaqpərvərlik adətinə toxunaraq, həmin adətin başlıca xüsusiyyətlərinə yer vermişdir. Bu xüsusda N.Araslının əsərə istinadən irəli sürdüyü fikri maraq doğurur. O yazır: “Əsərdə təbliğ edilən əxlaqi-tərbiyəvi nəsihətlər içərisində səxavət, əliaçıqlıq haqqındakı fikirlər də mühüm yer tutur. Şairə görə səxavət insanı yüksəldir. Hər kəs öz adına uyğun tərzdə səxavət göstərməlidir. Verilən bəxşiş bağışlanılan adamin deyil və bağışlayanın adına layiq olmalıdır. Şair qonaqlıq məclislərini təsvir edərkən səxavət və qonaqpərvərlik kimi gözəl ənənələr haqqında da danışır, gülərüzlə qonaq qəbul etmək, qonağa ürəklə qulluq göstərmək kimi adət-ənənələri öz əsərində əks etdirir”. Qonaqpərvərlik xalqımızın mənəvi mədəniyyətində ən qiymətli incidir və o, məişətimizdə qərarlaşıb sabitləşən adətlər içərisində mütərəqqiliyi ilə seçilir”.

Tədqiqatçı Elməddin Əlibəyzadə yazır ki, bütün türk xalqları olduğu kimi azərbaycanlılarda da qonaqpərvərlik, qonağa hörmət və qulluq göstərmək yüksək bəşəri qiymət kimi dəyərləndirilir. Bu xalqın milli-mənəvi keyfiyyəti kimi fəxr edilməli, öyünməli kefiyyət hesab olunur. Şirin Bünyadova daha sonra yazır: “Qonaqpərvərlik qaydalarının icrası geniş və çoxcəhətlidir. Xalqımızın məişətində əsrlərdən bəri kök salmış adətlərdən biri olan qonaqpərvərlik hələ qədim zamanlardan, başqa xalqlarda icra olunduğu kimi, Azərbaycanda da geniş yayılmışdır. Qonaqpərvərlik xalqımızın varlığını, gün-güzəranını, həyat tərzini, mənəvi dünyasını və mədəni səviyyəsini bütün çalarları ilə təqdim edən mütərəqqi bir adətdir.

Bu adət Azərbaycan ərazisində yaşayanların kimliyini, nəyə qadir olduğunu açıqlamaqla yanaşı, onların mənəvi dünyasına nüfuz etməyə də imkan yaradır.

Qonaqpərvərlik özünəməxsus xüsusiyyətlərə malik bir adətdir. Bəşər tarixi mərhələlər üzrə inkişaf etdikcə, qonaqpərvərlik adəti də müəyyən qədər dəyişikliyə uğrayaraq yeni keyfiyyətlər qazanmış, lakin öz mahiyyəti və ənənəvi cəhətlərini əsas etibarilə qoruyub-saxlamışdır. Orta əsrlərdə qonaqpərvərlik adəti feodal münasibətlərinin güclü təsiri altında olmuşdur. Azərbaycanda qonaqpərvərlik adətinin necə icra olunduğu barədə məlumat almaq üçün həmin dövrdə yaşamış müəlliflərin əsərləri xüsusi maraq doğurur. Bu müəlliflərin əksəriyyəti Azərbaycanın siyasi-iqtisadi vəziyyəti, təbiəti, karvan yolları, münbit torpaqları, buradakı bolluq və ticarət əlaqələri barədə geniş məlumatla yanaşı, yerli xalqa da qiymət verməyi unutmamışlar. Fikrimizi mənbələrin məlumatları da təsdiq edir. Böyük əhəmiyyətə malik olan orta əsr mənbələri canlı müşahidələrə əsaslandığı üçün dəqiq və səhih məlumatlarla zəngindir”.

Görkəmli fransız yazıçısı və səyyahı Aleksandr Düma bütün Qafqaz xalqları kimi azərbaycanlıların da yüksək qonaqpərvərliyindən bəhs edərək yazmışdır: “Azərbaycanda, eləcə də, bütün Qafqazda hər hansı bir qapını döyüb dəsəniz ki, mən əcnəbiyəm, gecələməyə yerim yoxdur, ev sahibi o saat ən böyük otağını sizə verəcəkdir. Özü isə ailəsi ilə kiçik otaqda yerləşəcək. Üstəlik onun evində qaldığmız, deyək ki, bir həftə, iki həftə, bir ay müddətində sizə qayğı göstərəcək, korluq çəkməyə qoymayacaq”.

Ev sahibi qonaq qarşısında məsuliyyət daşıdığı kimi, qonaq da qonaqpərvərlik qaydalarına riayət edərək, qarşılıqlı hörmətə əsaslanır, qonaq ailənin daxili işlərinə müdaxilə etmir. Yenə də Aleksandr Dümanın Azərbaycan qonaqpərvərliyi haqqındakı fikirlərini xatırlamaq yerinə düşərdi.

Şamaxıda varlı bir adamın evində qonaq qalan Aleksandr Düma xatırlayır ki, ev yiyəsi onun şərəfinə yaxşı süfrə açmış, şam və çıraq yandırılmış, xalça ilə bəzədilmiş xüsusi bir otaqda hər cür rahatlığının təmin olunmasına imkan yaratmışdı. Hətta A.Düma özünün qaldığı otaqda masa üzərinə kağız və qələm də qoyulduğunu qeyd edir. Qonaq evinin və ya otağının bəzədilməsi heç də formal xarakter daşımırdı. Evin içi və ya qonaq otağı yüksək zövqlə bəzədilirdi. Qonaq burada qaldığı müddətdə qonaq otağının içindəki hər şey, məhz ona məxsus olurdu. Bu da xalqımızın qədim adətlərindəndir.

Şirin Bünyadov Azərbaycanın müasir qonaqpərvərliyi haqqında belə yazır: “Xalqımızın mənəvi mədəniyyəti tarixində mühüm yer tutan Azərbaycan qonaqpərvərliyi əsrlərin keşməkeşindən zəmanəmizə qədər gəlib çatmış, qorunub-saxlanmışdır. Milli iftixarımız olan bu adət bütün dünyada bizə şərəf gətirmişdir. Qonaqpərvərlik Azərbaycan xalqının fədakar və cəfakeş olduğunu bir daha bariz şəkildə təsdiq edir. Qonağa müstəsna diqqət və tükənməz qayğı, sədaqət və inam sağlam mənəvi-əxlaqi tərbiyəni özündə əks etdirir. Yüksək mənəviyyata sahib olan azərbaycanlı üstün keyfiyyətlərə malik olmaqla hörmət etməyi, ehtiram göstərməyi, qayğıkeşliyi və sədaqəti ilə xalqını ucaldır, ona yüksək nüfuz qazandırır. İnanırıq ki, sağlam təməl üzərində boya-başa çatan gələcək nəsillərimiz də onlara ulularımızdan ərməğan qalan bu adəti layiqincə davam etdirəcəklər. Biz də öz növbəmizdə, xalqımızın yüksək dəyərlərini öyrənməli və gələcək nəsillərə öyrətməliyik. Arxeoloji və etnoqrafık tədqiqatlar nəticəsində əldə edilərək hazırda müzeylərimizi bəzəyən müxtəlif çeşidli zəngin maddi-mədəniyyət nümunələri, kim bilir, bir vaxtlar neçə-neçə qonağın xidmətində olmuşdur”.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti çərçivəsində hazırlanıb*

# Dünyanın ən sürətli maşını sınanır



Britaniyadakı Kornuoll yarımadasında yerləşən Nyukvey şəhərinin yaxınlığındakı aerodromda Bloodhound Supersonic Car (Bloodhound SSC) avtomobili sınanır.

Milli.Az Daily Mail-ə istinadən bildirir ki, səsdən sürətli avtomobilin sınaqlarının dünənki mərhələsini 3 mindən artıq tamaşaçı seyr edib. Göy-narıncı rəngli, raketə bənzəyən 13 metr uzunluqlu bolid ilkin mərhələdə 322 km/saatlıq "aşağı sürət"lə hərəkət edib. Bloodhound SSC bu sürətə 9 saniyədə çatıb. Bolidin şütüdüyü uçuş-enmə zolağı daha böyük sürətlə hərəkətə imkan vermir. Bloodhound SSC 1609 km/saat sürətlə hərəkət edəcək ilk avtomobil olacaq. Fəqət rekord indi yox, bir neçə ildən sonra əldə olunacaq. Həmin nəticə Cənubi Afrika Respublikasındakı Heksin-Pen gölündə əldə olunmalıdır. Bu quruyan gölün duzlu dibi ilə 19 kilometrlik düz sahəni bolid qət etməlidir. Bloodhound SSC bolidi Eurofighter Typhoon qırıcı təyyarəsindəki Rolls-Royce mühərriki ilə təchiz olunub.

# Almanı yuyarkən diqqət edin ki...



Sən demə, almanın xüsusi yuma üsulu var imiş. Belə ki, almanı çirk və pestisidlərdən tam təmizləmək üçün 15 dəqiqəyə yaxın sodalı suda saxlamaq lazımdır. Milli.Az Trend-ə istinadən bildirir ki, ABŞ-ın pestisidlərin təhlili laboratoriyasının mütəxəssisləri bu qənaətə gəliblər. Qeyd olunur ki, pestisidlərdən istifadə məhsuldarlığı artırsa da, bu dərmanın qalıqları almanın qabıqlarında qalır. Bu səbəbdən mütəxəssislər almanı qabığını soymaqla və ya meyvəni sodalı suda saxladıqdan sonra yeməyi məsləhət görürlər.

# Aslanın erkəyi, dişisi olmaz



Yatan balinalar, dişi şiri parçalamağa hazırlaşan kaftarlar, püskürən vulkanın yamacı ilə axan lava... Bütün bunlar dünyanın ən nüfuzlu jurnallarından biri "National Geographic"in keçirdiyi "2017 National Geographic Nature Photographer of the Year" fotomüsabiqəsi davam edir. Milli.Az dekabrın 12-də başa çatacaq müsabiqəyə göndərilmiş ən yaxşı fotoları təqdim edir. Fotolar arasında Keniyadakı Ambuseli Milli Parkında çəkilmiş kadr xüsusilə diqqət çəkir. Fotoqraf Adam Zaffın çəkdiyi, sanki, "aslanın erkəyi, dişisi olmaz" deyimini təsdiqləyən fotoda kaftarlarla dişi şir arasındakı qarşıdurma təsvir olunub. Müsabiqənin baş mükafatını alacaq fotoqrafa 7500 dollar, fərdi kateqoriyalardakı qaliblərə isə 2500 dollar veriləcək.

## ELAN

**"Yapı Kredi Bank Azərbaycan" QSC-nin "Elmlər Akademiyası", "Yasamal" və "Həzi Aslanov" filiallarının açılması üçün verilən müvafiq lisenziya bankın müraciəti əsasında ləğv edilmişdir. Ətraflı məlumat üçün *0444 Yapı Kredi Telefon Mərkəzinə müraciət etmələri xahiş edilir.**

* * *

**Mərhum Rundel (Ruidel) Nurəli Hacıəli oğluna məxsus olmuş Sumqayıt şəhəri, Sumqayıt bağları, 6-cı bağ massivi, 207 ünvanında yerləşən torpaq sahəsi və üzərindəki tikiliyə aid Bağlar Təsərrüfatı Birliyi tərəfindən verilmiş müqavilə itdiyi üçün etibarsız hesab olunur.**

* * *

**ADPU-nin "Filologiya" fakültəsinin II kurs tələbəsi İsmayıllı İnci Rövşən qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


# səs

Son səhifə 28 oktyabr


# UEFA "Qarabağ" və "Qəbələ"yə əlavə vəsait ayırdı




UEFA 2016/2017-ci il mövsümündə Avropa Liqası turnirində əldə olunmuş əlavə gəlirdən "Qarabağ" və "Qəbələ" klublarına vəsait ayırıb. Bu klublar müvafiq olaraq, 294 452 avro və 294 344 avro qazanıblar. Vəsait AFFA-nın vasitəçiliyi ilə müvafiq qaydada "Qarabağ" və "Qəbələ" klubunun hesabına köçürülüb. Qeyd edək ki, hər iki klub ötən mövsüm Avroliqanın qrup mərhələsində mübarizə aparıb.

# Mourinyodan "Atletiko"ya təklif



Oktyabrın 31-də "Qarabağ"ı qəbul edəcək "Atletiko" aparıcı futbolçularından olan Saul Nigeslə vidalaşa bilər. Milli.Az apasport.az-a istinadən xəbər verir ki, gənc yarımmüdafiəçinin karyerasını İngiltərədə davam etdirmək variantı var. Belə ki, "Mançester Yunayted" Saulun xidmətində maraqlıdı. "Mankunianlar"ın baş məşqçisi Joze Mourinyo rəhbərliklə söhbətində İspaniya yığmasının üzvünün alınmasını istəyib. O, keçidin baş tutması üçün 2 futbolçunu qarşı tərəfə göndərməyə razıdı. Söhbət Premyer Liqa klubunun formasını geyinən ispaniyalılar - Ander Herrera və Xuan Matadan gedir. Qeyd edək ki, ötən ildən miliyə də çağırılan Saul Niges cari mövsümdə 10 oyunda 1 qola imza atıb.

# Vidalın adı növbəti qalmaqalda hallanır



"Bayern Münhen"in yarımmüdafiəçisi Arturo Vidal növbəti dəfə gecə həyatında baş verən qalmaqalla gündəmə gəlib. Milli.Az goal.az-a istinadən xəbər verir ki, insident sentyabrın 17-də baş verib. Münhenin "Crown's Club" disko klubunda qardaşı Sandrino və dostları ilə istirahət edən Vidal toplu davada bir nəfərin başına butulka ilə zərbə endirib. Amma obyektin sahibi Oliver Rayf bunu təsdiqləməyib. Şəhər polisi faktla əlaqədar cinayət işi açıb. Klubdan informasiya ilə əlaqədar şərh verilməyib.

# "Barselona" Arda ilə bağlı qərarını verdi



"Barselona" futbolçusu Arda Turanı gələn ilin yayı satacaq. Milli.Az qol.az-a istinadən xəbər verir ki, bu barədə Türkiyə millisinin baş məşqçisi Mirça Luçesku məlumat verib. O bildirib ki, bununla bağlı Kataloniya klubununun çalışdırıcısı Ernesto Valverde deyib: "Valverde ilə görüşüb millinin oyunları öncəsi Ardaya məşqlərdə daha çox şans verməsini isətdim. Klub nümayəndələri Ernestoya Ardanın satılacağını deyib. Bu yay "Arsenal", "Qalatasaray" və ya "Monako"ya keçəcəkdi, amma alınmadı".

# Neymar cəzalandırılıb



Fransa Peşəkar Futbol Liqası PSJ-nin futbolçusu Neymarı cəzalandırıb. SİA-nın məlumatına görə, "Marsel"lə matçda qırmızı vərəqə alan ulduz futbolçu 2 oyunluq cəza alıb. O, PSJ-nin "Nitsa"ya qarşı keçirəcəyi oyunda çıxış etməyəcək. Hücumçuya verilmiş 2 oyun cəzanın 1 oyunu şərti cəza kimi tətbiq edilib və ona 6 ay sınaq müddəti verilib. Sınaq müddəti ərzində futbolçu yenidən cəzalanacağı təqdirdə sanksiyanın növbəti hissəsi qüvvəyə minəcək.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**